www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 dekabr 2016-cı il Cümə № 292 (6613) Qiyməti 60 qəpik

**Xəbər**

## Dolların rəsmi məzənnəsi yeni rekord vurdu

yazısı səh.2-də

**Gündəm**

### Suriyada Dağlıq Qarabağ məşqi



Ekspertlərə görə, Türkiyə və Rusiyanın Suriya mövzusunda razılığa gəlməsi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı anlaşmanı da mümkün edir

yazısı səh.9-da

### 2016-cı ildə azadlığa çıxan və məhbəsdə qalanlar...

yazısı səh.3-də

### İqtisadçılardan 2016-ya yekun qiymət - bağlanan 11 bank, ucuzlaşan manat...

yazısı səh.4-də

### "Qara bazar"ı sıradan çıxarmağın üç yolu...

yazısı səh.3-də

*Zahid Oruc:*

### "Prezidentin varlılara yönəlik çağırışları çox önəmli məsələdir"

yazısı səh.6-da

### İsrail-Amerika böhranı, yoxsa Tramp-Obama anlaşması?

yazısı səh.9-da

### İqbal Ağazadə üçün sirli 17 rəqəmi - 2017-dən nə gözləyir?

yazısı səh.7-də

### Hökumətin "ASAN"laşdırma prosesi çərçivəsində planları

yazısı səh.13-də

### Sahibkardan çağırış: "Məmurlar biznesdən çəkilsin..."

yazısı səh.10-da

### Ölkədə yayılan virus klassik qripdir, yoxsa...

yazısı səh.13-də

### SOCAR rəsmisi qəza baş verən kəmərlərlə "Şahdəniz" və "Azəri-Çıraq"dan quruya qaz nəql olunduğunu açıqladı

yazısı səh.8-də

## Düşmənin təxribatçıları ordumuzun pusqusuna düşdü

# KƏŞFİYYATA GƏLƏN ERMƏNİ DİVERSİYA QRUPU MƏHV EDİLDİ - CƏBHƏ XƏTTİNDƏ GƏRGİNLİK

İşğalçı ölkə çoxsaylı itkilər verib geri çəkildi; ermənilər öldürülən 1 zabit, 2 əsgərin adlarını açıqladı; Azərbaycanın bir əsgəri itkin düşüb; rəsmi Bakı işğalçıya dəstək verən KTMT-nin baş katibi Nikolay Bordyujaya etiraz etdi; İrəvan savaşı Qarabağ cəbhəsindən iki dövlətin sərhədinə keçirmək istəyir




yazısı səh.5-də

## ABŞ Cənubi Qafqazı Rusiyaya təhvil verir - iddia

"Rusiya ətrafında qurulan çəmbər Cənubi Qafqazla davam edərək, Orta Asiya respublikaları boyunca uzanmaqla Qırğızıstanda başa çatmalıdır"

yazısı səh.11-də



### Manatımız rubl kimi geri dönüş edə bilərmi - Qubad İbadoğlunun şərhi

yazısı səh.4-də



### Etibar Məmmədov siyasətə qayıdır

yazısı səh.7-də



Elxan Süleymanov

### Millət vəkilindən şamaxılılara Yeni il üçün məktəb binası hədiyyəsi

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016

# Prezident reabilitasiya mərkəzinin açılışında iştirak etdi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sabunçu rayonunun Zabrat qəsəbəsində inşa olunmuş yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün sosial reabilitasiya mərkəzinin, 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacağın, həmçinin yetkinlik yaşına çatmayanlar üçün sosial sığınacaq və reabilitasiya mərkəzinin açılışı olub.**



APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri açılışda iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya kompleksdə yaradılan şərait barədə məlumat verib.

Dövlət başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsib.

Azərbaycan prezidenti, xanımı və ailə üzvləri kompleksdə yaradılan şəraitlə tanış olublar. Mərkəzdə 12 çarpayılıq 4 palata, camaşırxana, metodika və stolüstü oyunlar otaqları da yaradılıb. Kompleksin 2800 kvadratmetrə yaxın tədris korpusunda okulist, terapevt, oftalmoloq, psixoloji təhlil, masaj, ayaq hissiyyatının artırılması və əl ağacından istifadəyə dair təlim, görmə imkanı məhdud şəxslərin vizual təsəvvürünün və yaddaşının inkişafı üçün təlim otaqları, həmçinin yeməkxana yaradılıb.

Sonra prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacaqda yaradılan şəraitlə tanış olublar. Ümumi sahəsi 2011 kvadratmetr olan üçmərtəbəli binada həkim otağı, tibbi müayinə, qəbul-qeydiyyat şöbəsi, yeməkxana və mətbəx, camaşırxana, təmiz inventar otaqları yaradılıb.

Dövlət başçısı və xanımı yetkinlik yaşına çatmayanlar üçün sosial sığınacaq və reabilitasiya mərkəzində yaradılan şəraitlə tanış olublar.

Həmçinin dünən Nərimanov rayonunda Uşaq Bərpa Mərkəzinin yenidənqurmadan sonra açılışı olub.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri tədbirdə iştirak ediblər.

Nazir Səlim Müslümov görülən işlərlə bağlı dövlət başçısına məlumat verib. Bildirib ki, 2003-cü ildən fəaliyyət göstərən Uşaq Bərpa Mərkəzinin binasında indiyə qədər əsaslı təmir və yenidənqurma işləri aparılmayıb. 2015-ci ildə mərkəzdə başlanan yenidənqurma işləri artıq yüksək səviyyədə başa çatdırılıb.

İndiyə qədər bu müəssisədə sağlamlıq imkanları məhdud olan 15 mindən yuxarı uşağa reabilitasiya xidməti göstərilib. Mərkəzə qəbul tibbi-sosial ekspertiza komissiyaları, müalicə-profilaktika müəssisələri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin göndərişləri əsasında həyata keçirilir. Xəstələrin reabilitasiyası stasionar və ambulator olaraq aparılır. Uşaq Bərpa Mərkəzində 95 nəfər işçi fəaliyyət göstərir.

## Ermənistan silahlı qüvvələrinə məxsus PUA ələ keçirildi



**Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı ələ keçirilib. Müdafiə Nazirliyindən musavat.com-a verilən məlumata görə, dekabrın 29-da axşam saatlarında cəbhənin Tərtər rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq xüsusi üsulla yerə endirilib.**

## Keçmiş MTN generallarının məhkəməsinin vaxtı açıqlandı

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) sabiq baş idarə və idarə rəisləri general Sübahir Qurbanov, general Teymur Quliyev, general Natavan Mirvətova, eləcə də həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinyət işi üzrə məhkəməyə sədrlik edəcək hakimin adı açıqlanıb.**

"Report"un məlumatına görə, iş Bakı Hərbi Məhkəməsinin hakimi Həbib Həsənovun icraatına verilib.

Yasamal Rayon Məhkəməsində keçiriləcək iclas yanvarın 19-na təyin edilib.

## Rusiya-Türkiyə "qırmızı xətt"i yaradıldı

**Rusiyanın müdafiə naziri Sergey Şoyqu Suriyada atəşkəs rejimini idarə etmək üçün Türkiyə ilə "qırmızı xətt" qurduqlarını açıqlayıb. Axar.az xəbər verir ki, Şoyqu prezident Vladimir Putin, xarici işlər naziri Sergey Lavrovun da iştirak etdiyi üçtərəfli görüşdən sonra bu barədə açıqlama yayıb.**

Açıqlamada "qırmızı xətt"in atəşkəs müqaviləsinə bütün şərtlər altında riayət olunması və Türkiyə ilə işbirliyinin gücləndirilməsi üçün qurulduğu qeyd olunub.

## Bakıda evə basqın olub, ahıl kişinin pulunu və silahlarını aparıblar

**Bakıda quldurlar ev sahibinin boğazına ip keçirərək onun pul və silahlarını aparıblar. "Report"un xəbərinə görə hadisə Suraxanı rayonunda qeydə alınıb. Belə ki, Dədə Qorqud qəsəbəsində yeni tikilidə yaşayan 1945-ci il təvəllüdlü Həsənov Hafiz Baladadaş oğlu iki nəfər naməlum şəxsin hücumuna məruz qalıb.**

Belə ki, iki nəfər evin pəncərəsindən içəri daxil olaraq H.Həsənovun başına yorğan atıb, boğazına ip keçirərək hədə-qorxu gəliblər. Naməlum şəxslər çarpayının altındakı 1 400 manat pulu, müvafiq sənədləri olan "Toz-12" və "Toz-16" markalı ov tüfəngini götürüblər.

Faktla bağlı Suraxanı Rayon Polis İdarəsində araşdırma aparılır.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## Nazirlik "Həyati bacarıqlara əsaslanan təhsil" kursunun dayandırılmasına aydınlıq gətirib

**Təhsil Nazirliyi ikinci yarımildən məktəblərdə dərsdənkənar məşğələlərə, fakültativ, fərdi və qrup məşğələlərinə ayrılan saatlar hesabına təşkil edilən "Həyati bacarıqlara əsaslanan təhsil" kursunun tədrisinin dayandırılmasının səbəbini açıqlayıb.**

APA-nın xəbərinə görə, nazirliyin aparat rəhbərinin müavini Fərzəli Qədirov bildirib ki, hazırda məktəblər çox yüklənir və nəticədə tədris planı ağırlaşır. Onun sözlərinə görə, son nəticədə şagirdlərin mənimsəmə keyfiyyətinə təsir edir: "Bu səbəbdən fakültativ məşğələlərin bir müddət məhdudlaşdırılması, şagirdlərə daha çox tədris üçün vaxt ayrılması, onların dərsə hazırlaşması üçün əlavə vaxtın verilməsi ilə bağlı müəyyən addımlar atılıb. Bu prosesə növbəti ildən-ikinci yarımildən başlanılacaq".

F.Qədirov vurğulayıb ki, indiyə qədər fakültativ məşğələlərin tədrisi ənənəvi olaraq aparılıb. Onun sözlərinə görə, bir çox hallarda onların keyfiyyəti ilə bağlı problemlər və suallar mövcud idi. Aparat rəhbərinin müavini vurğulayıb ki, bu məsələlər yalnız "Həyati bacarıqlara əsaslanan təhsil" üzrə fakültativ kursa deyil, məktəblərdə tədris edilən çoxlu sayda fakültativ dərsə aiddir.



## Dolların yeni rekordu - rəsmi məzənnə 1,77 manatı ötdü

**Azərbaycanın Mərkəzi Bankı (AMB) dekabrın 30-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi dekabrın 29-u ilə müqayisədə 0,3% artaraq 1,7707 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, dünən dolların məzənnəsi 1,7662 manata bərabər olub.**

Xatırladaq ki, dünən AMB-də Dövlət Neft Fondunun da iştirak etdiyi növbəti ikitərəfli valyuta hərracı keçirilib. Hərrac 1 dollar üçün 1,7662 məzənnəsi ilə başlayıb və 1,7707 məzənnəsi ilə yekunlaşıb.

## Bir gündə 3 nəfər dəm qazından boğularaq ölüb

**Azərbaycanda dəm qazı daha 3 nəfərin həyatına son qoyub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, dekabrın 27-də Sabunçu rayonunun Balaxanı qəsəbəsində yaşayan Pərvanə Xəlilova, Maştağa qəsəbəsində yaşayan Xamoş Əliyeva evlərində, Mingəçevir şəhər sakini Yeganə Quliyeva isə paytaxtın Nəsimi rayonu ərazisində kirayədə yaşadığı evdə dəm qazından zəhərlənərək ölüb.**

Hər üç faktla bağlı araşdırma aparılır.

## Putin Xəzərlə bağlı yeni sazişi təsdiqləyib

**Rusiya prezidenti Vladimir Putin Xəzər dənizində fövqəladə hallarla bağlı xəbərdarlıq edilməsi və onların aradan qaldırılması sahəsində əməkdaşlıq sazişinin təsdiq edilməsi haqqında qanunu imzalayıb.**

"Report" TASS-a istinadən xəbər verir ki, müvafiq sənəd Rusiyanın hüquqi informasiya rəsmi internet portalında dərc olunub.

Saziş Xəzər dənizi regionunda fövqəladə hallarla bağlı xəbərdarlıq üzrə əməkdaşlıq formalarını, eləcə də Xəzəryanı ölkələrin fövqəladə halların qarşısının alınmasına yönəlmiş qarşılıqlı yardım göstərilməsi və fövqəladə halların qarşısının alınması məqsədilə onların ərazisindən keçmək məcburiyyətində olan yardım göstərəcək qruplarının tranzit sadələşdirilməsi qaydalarını özündə əks etdirir.

Sənəd Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan hökumətləri arasında 2014-cü il sentyabrın 29-da Həştərxanda imzalanıb.

## 80 yaşlı qadın qonşu ər-arvadın davasına qarışdı, canından oldu

**Xudatda 80 yaşlı qadının boğazını kəsərək qətlə yetirməkdə təqdirləndirilən şəxsin məhkəməsi keçirilib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə prokuror Ramin Nağdəliyev ittiham aktını elan edib.

İttiham aktına görə, Rafiq Şıxverdiyev qonşusunu mübahisədən sonra öldürüb. Mübahisəyə səbəb isə 80 yaşlı qonşusu Fatma İbrahimxəlilovanın R.Şıxverdiyevi ələ salması olub. Belə ki, R.Şıxverdiyev həyətdə toyuq kababı bişirərkən arvadı ilə mübahisə edib. Toyuqlara yemək verməyi üçün arvadı ona irad bildirib.

Ər-arvad arasında başlayan mübahisə qonşunun ölümü ilə nəticələnib. 80 yaşlı qadın hasardan ər-arvadın mübahisəsinə baxıb və onlara söz atıb. Yaşlı qadının ər-arvadla zarafatı və dediyi sözlər onun son sözləri olub. Toyuq kababı bişirən Rafiq Şıxverdiyev əlində olan bıçaqla qonşusunun boğazına zərbə vurub. 80 yaşlı qadın hadisə yerində ölüb.

Qətli törədən şəxs hadisə baş verən zaman anlaqsız vəziyyətdə olduğunu deyir. Ancaq məhkəmədə ekspertiza rəyi açıqlanıb. Ekspertizanın rəyinə görə, Rafiq Şıxverdiyev qətli törədərkən anlaqsız olmayıb və özünü idarə edə biləcək vəziyyətdə olub.

**Məhkəmənin növbəti iclası yanvarın 5-nə təyin edilib.**

**İ.MURADOV**

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016



# 2016-cı ildə azadlığa çıxan və məhbəsdə qalanlar...

## Əlməmməd Nuriyev: "Ümid edirəm ki, növbəti ildə də əfv sərəncamlarını, amnistiya aktlarını görəcəyik"

**Hər il Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində prezident tərəfindən əfv sərəncamı imzalanırdı. Bu ayın əvvəlində də ekspertlər, hüquq müdafiəçiləri əfv sərəncamının imzalanacağını gözləsələr də bu, baş vermədi. Bu isə o deməkdir ki, həbsdə olan siyasi məhbusların azadlığa çıxmaq ümidləri Novruz bayramına qədər ertələndi.**

Lakin onu da qeyd edək ki, 2016-cı ildə imzalanan əfv sərəncamları, amnistiya aktı və məhkəmə qərarları ilə bir neçə siyasi-ictimai şəxslər azadlığa buraxıldılar.

Belə ki, 2016-cı il martın 17-də Azərbaycan prezidenti İlham Əliyevin imzaladığı əfv fərmanı ilə 150-yə qədər məhbus azad edilib. Onlar arasında beynəlxalq təşkilatların "siyasi məhbus" kimi tanıdıqları şəxslər də var: NİDA-çılar Rəşadət Axundov, Məmməd Əzizov, Rəşad Həsənov, Ömər Məmmədov, jurnalist Pərviz Həşimli, hüquq müdafiəçiləri Rəsul Cəfərov, Anar Məmmədli, Hilal Məmmədov; xalq hərəkatının fəallarından olan Nemət Pənahlı, Müsavat Partiyasının başqan müavinləri Yadigar Sadıqov və Tofiq Yaqublu, Müsavat Partiyasının üzvü Sirac Kərimli mart ayında əfv olunublar.

Bundan əlavə, mart ayının 17-də Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə 5 il sınaq müddəti təyin olunmaqla jurnalist Rauf Mirqədirov da azadlığa buraxılıb.

Martın 28-də baş prokuror Zakir Qaralovun hüquq müdafiəçisi İntiqam Əliyev barəsində seçilən cəzanın ağır olmasına dair əlavə kasasiya protesti ilə bağlı müraciətinə Ali Məhkəmədə baxılıb və Ali Məhkəmənin qərarı ilə İntiqam Əliyev 5 il müddətinə şərti cəza ilə azadlığa buraxılıb.

25 may tarixində Ali Məhkəmədə həbsdə olan jurnalist Xədicə İsmayılın verdiyi kasasiya şikayətinə baxılıb və o, saxlandığı 4 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılıb. Oktyabrın 4-də Müsavat Partiyasının başqan müavini Fərəc Kərimli də amnistiya aktı ilə azadlığa çıxıb.

Lakin yuxarıda da qeyd etdiyimiz kimi, bir neçə ictimai şəxsin azad olunmağına ümidlər növbəti ilə qalıb. Hazırda həbsdə olanlar içərisində REAL sədri İlqar Məmmədovu, cəbhəçilər Fuad Qəhrəmanlı, Seymur Həzi, Faiq Əmirli, Məmməd İbrahim, NİDA-çılar İlkin Rüstəmzadə və Əbdül Əbilovu qeyd edə bilərik.

Əfv Komissiyasının üzvləri bildirirlər ki, onlar yenə də öz fəaliyyətlərindədirlər və əfv üçün müraciət edənlərin sayı kifayət qədərdir.

**"Yeni Müsavat"a danışan Əfv Məsələləri Komissiyasının üzvü Əlməmməd Nuriyev bildirib ki, qarşıdan gələn il üçün ümidlidir:** "Əfv Komissiyasının yaradılması, prezidentin əfv hüququnun həyata keçirilməsi prosesində iştirakı təmin etməklə bağlı məsələdir. Müstəqillik əldə ediləndən bu günə qədər olan dövrə diqqət etsək, Əfv Komissiyasının necə səmərəli fəaliyyət göstərməsinin şahidi olarıq. Belə ki, müstəqillik illərində 61 əfv sərəncamı imzalanıb, 9 mindən artıq şəxs isə cəzadan azad edilib. Cəzadan azad olunanlara diqqət etsək görərik ki, burada müxtəlif kateqoriya üzrə cinayət etmiş şəxslər var. Lakin burada balans gözlənilib. Birinci növbədə zərərçəkmişlərin maraq və mənafeləri nəzərə alınıb. Bəllidir ki, hər bir cinayət nəticəsində hansısa subyekt zərər çəkir. Bunlar insanlar, hüquqi şəxslər və ya dövlətin özüdür. Əfv Komissiyası bu məsələləri araşdıran zaman diqqətli olmalıdır. Cəsarətlə söyləmək olar ki, bu balans təmin olunub. İkincisi, cəmiyyətdə müəyyən məsələlər haqqında fikirləri olan şəxslərin əfvə düşməsi də Əfv Komissiyasının ədalətli yanaşması və cənab prezidentin humanistliyinin nəticəsidir".


Əlməmməd Nuriyev

**Ə. Nuriyev bildirib ki, əfv olunan şəxslərin böyük əksəriyyətinin yenidən cinayət etməməsi də görülən işlərin uğurunun nəticəsidir:** "Hesab edirəm ki, növbəti il də indiyə qədər olan yanaşmanın davamı gələcək. Əfv Komissiyası da həmçinin, öz səmərəli fəaliyyətini göstərməkdə davam edəcək. Düşünmürəm ki, ilin sonuna qədər əfv olacaq. Çünki nəzərə almaq lazımdır ki, istər 2015-ci ilin sonunda, eyni zamanda 2016-cı ilin mart ayında ardıcıl olaraq cənab prezident tərəfindən iki əfv sərəncamı imzalandı. Bu il ərzində həm də may ayında Milli Məclisdə birinci xanımın təşəbbüsü ilə Amnistiya Aktı qəbul edildi. Bunun nəticəsində də 10 mindən artıq şəxs cəzadan azad edildi. Həmçinin Ədliyyə Nazirliyinin təşəbbüsü ilə vaxtından əvvəl şərti azadetmə institutunun səmərəliliyi ilə bağlı komissiya da yaradılıb. Bu komissiya da məhkum olunmuş şəxslərlə bağlı obyektiv araşdırmalar aparır və bu araşdırmalarda məhkumların özləri, onların valideynləri də dinlənir. Komissiyanın müsbət mülahizə vermiş şəxslərin 99 faizi məhkəmələr tərəfindən azadlığa buraxılır və ya cəzası yüngülləşdirilir. Bəlkə də bütün bunlar səbəbindən hesab edirəm ki, ilin sonunda əfv sərəncamına zərurət qalmayıb. Ümid edirəm ki, növbəti ildə də əfv sərəncamlarını və amnistiya aktlarını görəcəyik".

❑ Əli Rais

# "Qara bazar"ı sıradan çıxarmağın üç yolu...

## Ekspert valyuta bazarındakı ajiotajı aradan qaldırmağın üsullarından danışdı

**Dövlət Təhlükəsizlik Xidməti ölkə ərazisində valyuta dövriyyəsində manipulyasiya halları və "qara bazar"la mübarizə aparır. Vaxtaşırı olaraq mətbuatda bir neçə nəfərin saxlanması barədə məlumatlar yayılır. Lakin keçirilən bu inzibati tədbirlərə rəğmən "qara bazar"ı ləğv etmək mümkün olmur. Bəs görəsən, Azərbaycan iqtisadiyyatının üz qarası olan "qara bazar"ı necə ləğv etmək olar? Bunun yolları nədir?**

**İqtisadçı ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bunun qarşısını almağın yeganə yolu leqal valyuta satışını bərpa etməkdir: "Əslində "qara bazar"ın yaranması hər hansı ölkənin iqtisadi sisteminin, bank sisteminin üz qarasıdır, ayıbıdır. Normal bank sistemi olan ölkələrdə "qara bazar" yarana bilməz. Belə bir fəsad varsa, deməli, problemin kökündə iqtisadi sistemdəki çatışmazlıqlar dayanır. Bunu maliyyə sistemində axtarmaq lazımdır. Bunun həlli yolları da çox bəsitdir. Valyutadəyişmə məntəqələri mənasız yerə bağlandı, bu heç bir effekt vermədi. Halbuki bağlanarkən belə bir bəyanat olmuşdu ki, bu ajiotajın qarşısını almaq üçün atılan bir addımdır. Əksinə, bu addım ajiotajı daha da artırdı, ölkəyə gələn xaricilər üçün, xüsusən də turistlər üçün çox böyük problemlər də yaşatdı. Bu problemin həlli yollarından biridir. Valyutadəyişmə məntəqələri sərbəst fəaliyyət göstərməlidir".


Natiq Cəfərli

**Problemin ikinci həlli yolunu göstərən ekspert qeyd etdi ki, Mərkəzi Bankın banklar üçün formal olaraq qoyduğu 4 faizlik məzənnə marjını ləğv etmək lazımdır:** "Bu mənasız bir addımdır və ən azından indiki dövrdə bu ajiotajın yatırılması üçün bu qayda ləğv edilməlidir. Banklar üçün şərait yaradılmalıdır. O zaman banklarda dollar satışı arta bilər.

Üçüncü addım kimi, hərraclara çıxan oyunçuların sayını artırmaq lazımdır. Bu sonuncu addım uzun zaman ala biləcək bir məsələdir. Azərbaycan hökuməti vaxtında addımlar atmadığı üçün belə bir hal yarandı. Mərkəzi Bank artıq bir oyunçu kimi geri çəkilib. Artıq bu qurum hərraclara müdaxilə etmir. Yalnız Neft Fondu valyuta satır. Ona görə də qıtlıq yaranır. Əgər bazarda ikinci, üçüncü güclü oyunçular yaranmasa, bu prosesin davamlı şəkildə getməsi ehtimalı var. Çünki bazarda yeganə oyunçu Neft Fondudursa, onun da bazara valyuta çıxarmaqla bağlı bəlli həddi var. Məsələn, gələn il DFN-in 4 milyard dollara yaxın valyuta satmaq üçün icazəsi var. Tələb bundan çox olsa nə baş verəcək?"

**N.Cəfərlinin fikrincə, "qara bazar"ın ləğv edilməsinin yeganə yolu iqtisadi yoldur:** "Həbslərə, təqiblərlə bunun qarşısını almaq mümkün deyil. Bunu heç SSRİ də bacarmadı. Azərbaycan da bacarmayacaq. Çünki tələb olan yerdə hər zaman təklif də olur. Mütləq şəkildə «qara bazar»ı yaradan iqtisadi səbəblər aradan qalxmalıdır. Bu, investorları da ciddi şəkildə qorxudan məsələdir. Azərbaycan hökuməti hələ ki bunu anlamır. Amma xarici yatırımçılar üçün valyutaya çıxış imkanlarının sərbəst olması, pul köçürmələrinin sərbəst olması əsas şərtlərdən biridir. Belə vəziyyətdə olan ölkəyə heç bir investor gəlməz".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016

**Manatın get-gedə dəyərdən düşməsi hər kəsi narahat edir. Bəzi ekspertlər milli valyutanı xilas etmək üçün Rusiya təcrübəsini tətbiq etməyi tövsiyə edirlər. Belə ki, Rusiya rublu uzun müddət devalvasiyaya məruz qalsa da, artıq rublun kursunda sabitlik yaranıb. Rusiya iqtisadiyyatı müəyyən qədər böhranlı dövrü geridə qoyub və indi əks proses baş verməkdədir. Azərbaycanda isə təəssüf ki, proses bir istiqamətdə gedir.**

# Manat da rubl kimi geri qayıda bilərmi...

## Qubad İbadoğlu: “Rusiya rublunun məzənnəsində yaranan stabillik bu ölkənin iqtisadiyyatında əldə olunan uğurların nəticəsidir”

Bəs görəsən, Rusiya iqtisadiyyatının Azərbaycan iqtisadiyyatından fərqi nədədir? Putin hökuməti rublu dirçəltməyə necə nail oldu?

Manatı da eyni şəkildə dirçəltmək mümkündürmü?

“Yeni Müsavat”ın suallarını cavablandıran **iqtisadçı ekspert Qubad İbadoğlu** bildirdi ki, Rusiya rublunun məzənnəsində yaranan stabillik bu ölkənin iqtisadiyyatında əldə olunan uğurların nəticəsidir: “Putin hökuməti Rusiyada rublu sabit saxlamağa nail ola bildi. Bunu şərtləndirən birinci amil odur ki, Rusiya iqtisadiyyatı daha çox şaxələnib, nəinki Azərbaycan iqtisadiyyatı. Rusiyanın həm valyuta gəlirləri, həm də büdcə gəlirləri çox müxtəlif sektorlardan təmin olunur. Orada aparıcı rol yalnız qaz və neftə məxsus deyil. Xammal və resurslar baxımından da Rusiya iqtisadiyyatı daha çox diversifikasiya olunub. Çünki Rusiya bazarında yerli məhsulların xüsusi çəkisi idxal malları ilə müqayisədə daha yuxarıdır. Bu baxımdan, həm sahibkarlara, həm də istehlakçılara daha çox rubl lazım olur. Çünki sahibkarlar həm xammalı rublla alır, həm də bazara çıxarıb rublla satırlar. Gəlirləri də, xərcləri də milli valyuta ilə olduğundan dollar almağa ehtiyac qalmır. Rusiyada hesablaşmaların böyük əksəriyyəti məhz rublla aparılır. Bu, yalnız sahibkarların deyil, həm də əhalinin davranışları ilə bağlıdır. Azərbaycandan fərqli olaraq Rusiyada əhali əlinə düşən hər 1000 rublu dollara dəyişmir. Onların rubla olan inamı bizim manata olan inamımızdan daha yüksəkdir”.

**Ekspertin sözlərinə görə, bu məsələdə digər bir amil ondan ibarətdir ki, rus rublu regionda istifadə olunur:** “Rublu əksər MDB dövlətlərində dəyişmək olur. Hətta Çində və Türkiyədə də maliyyə əməliyyatlarında rublla hesablaşmalar aparmaq mümkündür. Bu onu deməyə əsas verir ki, rus rublu təkcə Rusiyanın sərhədləri çərçivəsində deyil, həm də regionda valyuta vahidi kimi qəbul olunur, hesablaşmalarda istifadə olunur. Bu da önəmli amillərdən biridir.

Nəhayət, hesab edirəm ki, Rusiyanın Mərkəzi Bankının yerli və xarici maliyyə bazarındakı fəaliyyətini də çox yüksək qiymətləndirirəm. Bu ölkənin mərkəzi bankı daha düzgün məzənnə siyasəti yeritdi. Onlar uzun müddət rus rublunun inzibati müdaxilələrlə tənzimləməkdən imtina etdilər. Onlar


Qubad İbadoğlu

tam üzən məzənnə olmasa da, sərbəst üzən məzənnə rejimində rublun tənzimlənməsinə keçdilər. vaxtında üzən məzənnəyə keçdilər və Azərbaycanda olduğu kimi prosesi ləngitmədilər".

**Qubad İbadoğlu onu da diqqətə çatdırdı ki, əgər Azərbaycanda da iki il öncə üzən məzənnəyə keçilsəydi, onun fəsadları daha az olardı:** “Azərbaycanda devalvasiya ən azı 3-4 il əvvəl olsaydı, bu gün Azərbaycan manatı belə aciz vəziyyətə düşməzdi. Bu mənada Rusiya Mərkəzi Bankı vaxtında və düzgün qərar qəbul etdi. Dollara tələbatın artması, bazarda dollar qıtlığının yaşanması kimi hallar Qazaxıstanda da, Rusiyada da olub. Sadəcə, həmin ölkələrdə bu kimi hallarla mübarizə daha güclü olub və onun əhatə dairəsi daha məhdud olub. Bu məsələdə fərqlər var. Rusiyada bank sistemi daha sağlamdır. Azərbaycan bankları kimi ”parnik" bankları deyil. Orada da belə banklar var idi, lakin sıradan çıxdılar, bu böhran onları “yedi”. Bu baxımdan, Rusiyanın bank sistemi problemlərin qarşısında aciz qalmadı. Biz manatın üstündən birdəfəlik xətt çəkməli deyilik. Manatın kursunda tarazlığa nail olma imkanları hələ də qalır. Bunun üçün sadəcə vaxtında və düzgün qərarlar qəbul olunmalıdır. Nə qədər geciksək də bu şansımız itirilməyib. Manatın tarazlığını bərpa etmək üçün bazara sərbəstlik vermək lazımdır. Bu proses nə qədər tez başlasa, itkilər o qədər az olacaq. Əvvəl-axır onsuz da manat bazarda real qiymətini alacaq. Buna görə də biz nə qədər tez qərar qəbul etsək, bir o qədər də tez manatın real kursu ilə qarşılaşa biləcəyik. Lakin indi manatın məzənnəsinin sabitləşməsindən danışa bilmərik. Çünki sabitləşmə üçün gərək iqtisadi artım olsun və ümumi daxili məhsulda artım müşahidə olunsun".

❑ Nərgiz LİFTİYEVA

# İqtisadçılardan 2016-ya yekun qiymət - bağlanan 11 bank, ucuzlaşan manat...

## Ekspertlərin 2017-ci illə bağlı gözləntiləri də müsbət deyil

**İqtisadçı ekspertlər 2016-cı ildə ölkə iqtisadiyyatı ilə bağlı rəylərini açıqlayıb, gələn il üçün proqnozlarını verib. Ekspert Əkrəm Həsənov bildirib ki, bu il iqtisadi mənzərə daha çox milli valyuta olan manatla bağlı olub. “Dolların kursu 2016-cı ili 1,56 ilə başladı, indi 1,77-dir. Rəsmi olaraq manat 21 qəpik ucuzlaşıb. Amma qeyri-rəsmi olaraq isə 40 qəpik ucuzlaşma var. ”Qara bazar"da dolların kursu 1,95-1,96 manatdır.**

Ötən ilin fevralında manat 27 qəpik ucuzlaşmışdı, bu, ölkəmiz üçün çox böyük bir şok idi. Dekabrda isə 50 qəpik ucuzlaşmışdı. Bu baxımdan, artıq 2016-cı ildə üçüncü devalvasiya baş verib, bunu etiraf etmək lazımdır. Mərkəzi Bank bunu tam etiraf etmir. Çünki onun öz məzənnəsi faktiki məzənnədən 20 qəpik bahadır. Buna görə də Mərkəzi Bankın siyasəti bu il iflasa uğradı. Gələn ilə proqnozlar da ürəkaçan deyil. Manat tam üzən məzənnəyə keçəcək, bunu deyiblər. Tam üzən məzənnə deyəndə o ehtiva olunur ki, banklar məzənnəni özləri müəyyən edəcəklər. Bu da ilk dövrdə manatın yenidən ucuzlaşması deməkdir. Amma hər bir halda, əgər bu, baş verərsə, yenə də ən azı, manatın dəyərini banklar gələn ildən müəyyən etməyə başlayacaqlar. Bu da iqtisadiyyatımızı və pul siyasətimizi yavaş-yavaş sağlamlaşdıra bilər. Ən azı, milli ödəniş sistemi tam qaydada fəaliyyət göstərəcək. Bu gün milli ödəniş sistemi iflic olub. Heç kəs heç kəsə ödəniş etmir, hamı ödənişlərini saxlayıb, hamı gözləyir ki, manat devalvasiya etsin. Digər tərəfdən, sahibkarlar da sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilmir. Çünki öz mallarını ucuz manata satmaq istəmirlər, qiyməti dollara bağlamaq isə qanunsuzdur. Ona görə də belə iflic vəziyyət yaranıb. Ümid edək ki, gələn il bu sarıdan da heç olmasa, vəziyyət yavaş-yavaş düzələcək. Amma növbəti kəskin devalvasiya qaçılmazdır. Bu da ciddi qiymət artımlarına gətirib çıxaracaq. Çünki biz ən sadə malları belə idxal edirik, bunu da dollarla alırıq. Manatın dəyərdən düşməsi hər sahədə qiymətlərin qalxmasına səbəb olacaq. Bu baxımdan, gələn il üçün ürəkaçan bir proqnoz gözlənilmir".

**Ölkənin bank sisteminə gəldikdə isə Ə.Həsənov qeyd edib ki, çöküş artıq baş verib:** “Bank sistemi 2016-cı ildə artıq çöküb.




11 bank bağlanıb. Digər ortada qalanların əksəriyyətinin vəziyyəti də çox pisdir. Böyük ehtimalla, gələn ilə də bir o qədər bank bağlanacaq. Əmanətlərin banklardan çıxarılmasında da sürətlənmə olacaq. Faktiki olaraq, bank sistemində pul kütləsi xeyli azalacaq. Əsas problem də dollar kreditləri ilə bağlı olacaq. Bu problem daha da kəskinləşəcək. Gələn il ümumiyyətlə bank və borclu münasibətlərinin daha da şiddətlənəcəyini gözləyirəm. Məhkəmə prosesləri artacaq. Baş verənlər sosial gərginliyi artıracaq".

**Qubad İbadoğlu qeyd edib ki, yola saldığımız 2016-cı ilin ən böyük özəlliyi son illər önə çıxmış və sürətlə baş verən müxtəlif iqtisadi hadisə və proseslərin daha da aktuallaşdırmasıdır:** “İl ərzində iqtisadi məsələlər həm prezidentin, həm hökumətin, həm də vətəndaşın gündəliyində əsas məsələ olsa da təəssüf ki, bu sahədəki başlıca problemlər həll olunmadan növbəti ilə ötürüldü. İqtisadi proseslərlə zəngin olan cari il həm də rəsmi prizmadan ziddiyyətli və gecikən yanaşmalarla da yadda qalan il oldu. 2016-dan başlıca iqtisadi gözləntilər pozitiv müstəvidə özünü doğrultmadı. İl nəinki dönüş, heç keçid ili belə ola bilmədi. Səmərəsiz və uzun müzakirələr, eləcə də bu ilin yaratdığı imkanların vaxtında dəyərləndirilməməsi böhrandan çıxış şansının itirilməsini şərtləndirdi. İl ərzində iqtisadi böhran həm üfüqi, həm də şaquli istiqamətdə dərinləşdi. İlin sonunda böhrana məruz qalan sektorların siyahısına milli iqtisadiyyatın əsas və real bölməsi olan sənaye də qoşuldu, kənd təsərrüfatında artım tempi aşağı düşdü. Bu il son 5 ildə qeyri-neft ixracatının potensialından ən az istifadə olunan, son 10 ildə ən kiçik dövlət büdcəsi formalaşdırılan il kimi tarixdə qaldı”.

**Ekspertin sözlərinə görə, 2016-cı il xüsusilə istehlakçılar üçün gərgin olub:** “İl ərzində müşahidə olunan davamlı devalvasiyaya görə, onsuz da çox olmayan gəlirləri dəyərsizləşən büdcə sferasında çalışan orta və aşağı ranqlı məmurlar, müəllimlər, həkimlər, mədəniyyət, idman, KİV işçiləri, cüzi gəlirlərə malik olan pensiyaçılar ikirəqəmli inflyasiyanın yaratdığı əlavə xərclərin əsirinə çevrildilər, onların qazancları ehtiyaclarını minimum səviyyədə ödəməyə güclə çatdı. 50 mindən çox iş yerinin ixtisarı nəticəsində yaranan tsiklik və struktur işsizliyi və istehlak xərclərinin çoxalması səbəbindən genişlənən borclanma 2016-cı il böhranının ən böyük sosial fəsadları sayıla bilər. Xüsusilə də iş yerini itirənlər yüksək inflyasiyanın yaratdığı əlavə xərclərin altında əzilərək qara günlər yaşadılar”.

**Q.Obadoğlu deyib ki, ilin ən böyük itkisi islahatların imitasiyası səbəbindən baş verdi və nəticədə 2016-cı il nəinki islahatlar, heç islahatlara start ili kimi də yadda qalmadı:** “Sistemsiz və ziddiyyətli idarəetmə qərarları, fərman və sərəncamlar yalnız islahat göntüsü yaratmağa xidmət etdi. İlin sonunda Tarif Şurasının elektrik enerjisinin və təbii qazın tariflərinin differensiallaşdırılması ilə bağlı əsaslandırılmayan, bazar tələblərini, alıcılıq qabliyyətini və sosial vəziyyəti nəzərə almadan verilən qərarı ilin ən uğursuz qərarı olub. Yola saldığımız ilin ən riskli qərarı Dövlət Neft Fondunun Beynəlxalq Bankda yerləşdirdiyi 1 milyard dollar depozitlə bağlı olub. 2016-cı ilin ən səmərəsiz iqtisadi siyasəti manatın məzənnəsinin inzibati tənzimlənməsinin davam edirilməsi sayıla bilər”.

Ekspertin fikrincə, ilin ən mənasız iqtisadi siyasəti aqraq sahədə, xüsusilə də pambıqçılıqla bağlı olub.

İlin fiaskosu da bu sahədə qeydə alınıb. İlin ən çox əzilən təbəqəsi sahibkarlardır. Onlar yalnız böhranın deyil, həm də haqsız müdaxilənin və əsassız cərimələrin məngənəsində sıxılıblar. Bu il ərzində dövlətin ən aciz siyasəti kapitala nəzarətlə bağlıdır. Ölkədən çıxan kapitalın qarşısını almağa yönələn məhdudlaşdırıcı tədbirlərə baxmayaraq Azərbaycandan xaricə külli miqdarda kapital çıxarılıb. Nəinki bu ilin, hətta ötən 5 ilin ən iri maliyyə fırıldağı Beynəlxalq Bankla bağlı olub. İlin ən radikal qərarı “Bank Standart”ın bağlanması sayıla bilər. İlin ən bahalı reklam kampaniyası “SOCAR-ın istiqrazları” ilə bağlı sayılsa da, gözlənildiyinin əksinə olaraq bu istiqrazların əsas alıcısı vətəndaşlar deyil, şirkətlər olub. İlin ən uzun müddətli müqaviləsi ARDNŞ və bp arasında 2050-ci ilə kimi “Azəri-Çıraq-Günəşli” yatağının işlənməsi barədə saziş olub. İlin ən pozitiv iqtisadi qərarı gec də olsa, qeyri-neft sektorunun və ixracatın inkişaf modelinə önəm verilməsi hesab oluna bilər”.

❑ RÖYA

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016

# Düşmənin təxribatçıları ordumuzun pusqusuna düşdü




**Dekabrın 29-da səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat qrupu Azərbaycan-Ermənistan dövlət sərhədini pozmağa cəhd göstərərkən bölmələrimizin pusqusuna düşüb. Bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayıb. Rəsmi məlumatda deyilir ki, döyüş toqquşması zamanı düşmən tərəfi canlı qüvvə sarıdan xeyli itki verərək geri çəkilməyə məcbur edilib. Nazirlik bəyan edib ki, hadisə nəticəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Qurbanov Çingiz Salman oğlu itkin düşüb. Onun tapılması istiqamətində müvafiq tədbirlər görülür.**

# Kəşfiyyata gələn erməni diversiya qrupu məhv edildi - cəbhə xəttində gərginlik

## İşğalçı ölkə çoxsaylı itkilər verib geri çəkildi; ermənilər öldürülən 1 zabit, 2 əsgərin adını açıqladı; Azərbaycanın bir əsgəri itkin düşüb; rəsmi Bakı işğalçıya dəstək verən KTMT-nin baş katibi Nikolay Bordyujaya etiraz etdi; İrəvan savaşı Qarabağ cəbhəsindən iki dövlətin sərhədinə keçirmək istəyir

Ermənistan isə cəbhə xəttində məhv edilmiş erməni hərbçilərdən üçünün adını açıqlayıb. İşğalçı ölkənin Müdafiə Nazirliyinin mətbuat xidməti baş leytenant Şavarş Melikyan, sıravi əsgərlər Edqar Narayan və Erik Abovyanın məhv edildiyini təsdiqləyib.

Ermənistan ordusunun Azərbaycanla sərhədin qərb istiqamətinə cavabdeh olan 3-cü ordu korpusunun komandiri, polkovnik Ayk Petrosyan jurnalistlərə bildirib ki, atışmaya baxmayaraq Çinari kəndində situasiya sakitdir, əhali arasında panika yaranmayıb. (virtualaz.org)

29 dekabr səhər saat 07.30 radələrində Ermənistan silahlı qüvvələri baş qərargahının rəis müavini, general-leytenant Enriko Hapriamov isə avtomobillə Azərbaycanla sərhəddəki döyüş mövqelərindən birinə gedərkən qəzaya düşüb.

Ermənistan KİV-lərinin məlumatına görə, general və sürücüsü yaralanıb, onlar hərbi hospitala aparılıb. Lakin həyatları üçün təhlükə yoxdur. Müdafiə Nazirliyinin rəsmisi Artsurun Ovanisyan məlumatı təsdiqləyib. Məlumata görə, Hapriamov Ermənistan parlamentinin spikeri Qalust Saakyanla birlikdə hərbçilərlə görüşmək üçün döyüş mövqelərinə gedirmiş.

Elə həmin gün Azərbaycanın işğal olunmuş Ağdam rayonunun təmas xəttində yerləşən Əhmədağalı kəndi Ermənistan silahlı qüvvələrinin atəşinə məruz qalıb. "Report" xəbər verir ki, ermənilərin atdığı mərmilərdən biri kənd sakini Mətləb Əliyevə məxsus ikimərtəbəli evə düşüb. Nəticədə yanğın baş verib və 8 otaqlı 338 kv.m-lik evin 318 kv.m-i əşyaları ilə birlikdə tamamilə yanıb. Kənd sakinlərinin sözlərinə görə, qarşı tərəf əsasən yandırıcı güllələrdən və mərmilərdən istifadə edib. Atılan güllələrdən biri evin dam örtüyünə düşüb. Yanğın zamanı ev sahibləri mənzildə olublar. Xəsarət alan olmayıb. Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin Ağdam rayon Yanğından Mühafizə hissəsinin əməkdaşları cəlb olunublar. Alovun qonşu evlərə keçməsinin qarşısı alınıb.

***

Qeyd edək ki, "Yeni Müsavat" qəzeti bir neçə gün əvvəlki sayında cəbhə xəttində "tufanqabağı sakitliyin" hökm sürdüyünü yazmışdı. Xüsusilə də erməni prezident Serj Sərksiyanın Qarabağa səfərindən sonra geri dönərək müharibə hazırlıqları ilə bağlı xəbərdarlıq etməsi, həmçinin düşmən ölkənin birmənalı şəkildə danışıqlardan yayınması hər an şiddətli döyüşlərin başlaya biləcəyi ehtimalını yaradırdı. Üstəlik, Ermənistanın yeni müdafiə naziri Vigen Sərkisyan apreldə itirilmiş mövqelərin əvəzini çıxmaqdan və özünü təsdiqləməkdən ötrü fürsət gəzir. Bu mənada düşmənin Ermənistan-Azərbaycan dövlət sərhədində təxribatlar törətməsi təsadüfi deyil. İstisna deyil ki, işğalçı ölkə apreldəki kimi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) dəstəyindən məhrum olmamaq üçün təxribat-diversiya planını bu dəfə Qarabağ cəbhəsindən deyil, iki ölkə sərhədindən həyata keçirib. Ola bilsin bununla Ermənistan həm də KTMT-dəki sonuncu iflasının qarşılığında qurum üzvlərinin dəstəyini qazanmaq istəyir. Xatırladaq ki, qurumun bugünlərdə Sankt-Peterburqda keçirilən toplantısında KTMT-nin baş katibliyinin Ermənistana verilməsi növbəti dəfə təxirə düşdü və aprel ayına saxlanıldı. Görünür, İrəvan aprel ayındakı toqquşmalar zamanı təmkinli davranan KTMT-nin Azərbaycana qarşı səfərbər olunması üçün təxribatları işə salıb. Bununla işğalçı ölkə çox güman ki, "KTMT üzvü olan ölkəyə qarşı təhlükənin olduğu" görüntüsünü yaratmaq istəyir. Erməni tərəf təxribatın ardınca yanlış informasiyalar yaymaqda davam edib. Hətta Ermənistanın news.am saytı insidentlə bağlı KTMT-nin mətbuat katibi Vladimir Zaynetdinova zəng vurub. Virtualaz.org-un xəbərinə görə, Zaynetdinov sualı eşidəndən sonra əvvəlcə deyib ki, bu sualı Ermənistan hakimiyyətinə ünvanlamaq lazımdır. Daha sonra o, xəstəliyə görə məzuniyyətə çıxdığını və insident barədə KTMT-nin məlumata malik olub-olmadığını yaxın saatlarda dəqiqləşdirə bilməyəcəyini bildirib. Bəs erməni jurnalist hara müraciət etsin, dərdini kimə desin? Zaynetdinov deyib ki, əlinin altında sorğu-məlumat kitabçası yoxdur və bir saat sonra zəng vurmaq lazımdır. Bir saat sonra isə KTMT-də dəstəyi qaldıran olmayıb...

***

29 dekabr səhər saatlarında Ermənistan təbliğatı davamlı olaraq Azərbaycanı günahlandıran bəyanatlar, məlumatlar yaydılar, hətta KTMT-ni şantaj mövqeyindən çıxış edib məsələyə münasibət bildirilməsini istədilər. Ən nəhayət, düşmən istəyinə çatdı. Belə ki, KTMT-nin baş katibliyindən verilən reaksiya Ermənistanın həyata keçirdiyi təxribat planının arxasında başqa qüvvələrin də dayandığını deməyə imkan verir. "Ermənistanın Çinari kəndi yaxınlığındakı məlumatları xüsusi narahatlıqla qəbul edir". KTMT-nin baş katibi Nikolay Bordyuja bunu Ermənistan-Azərbaycan sərhədində baş vermiş hərbi toqquşmaya münasibət bildirərkən deyib. Vəziyyətlə bağlı narahatlığını ifadə edən N.Bordyuja növbəti dəfə Ermənistanın yanında olduğunu nümayiş etdirərək "KTMT üzvü olan ölkənin ərazisində" törədilən bu hərəkətləri "təxribat" adlandırıb. Azərbaycan Müdafiə Nazirliyinin hadisənin gerçək səbəbləri ilə bağlı rəsmi açıqlamasını nəzərə almayan baş katib hətta aprel döyüşlərini xatırlarkən "Dağlıq Qarabağ Respublikası" ifadəsindən də istifadə edib.

**Rəsmi Bakı KTMT rəsmisinin açıqlamasına reaksiya verib.**

**"Kollektiv Təhlükəsizlik üzrə Müqavilə Təşkilatının Ermənistan-Azərbaycan sərhədindəki məsələ ilə əlaqədar şərhini birtərəfli hesab edirik". Azərbaycan Xarici İşlər Nazirliyinin Azərbaycan- Ermənistan sərhədində baş verən hadisə ilə bağlı KTMT-nin baş katibi Nikolay Bordyujanın açıqlamasına dair bəyanatında belə deyilir.**

**Bildirilir ki, KTMT-nin baş katibinin təşkilatın üzv dövlətlərinin rəsmi mövqeyinə və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin mahiyyətinə zidd olaraq, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimə "Dağlıq Qarabağ Respublikası" kimi müraciət etməsi qəbuledilməzdir:** "KTMT-nin baş katibi hər hansı açıqlama və şərhlə çıxış etməzdən öncə vəziyyəti düzgün təhlil etməli və qiymətləndirməlidir. Ermənistanın KTMT-nin sonuncu Sankt-Peterburq zirvə görüşündən sonra növbəti məyusluğa uğrayaraq, belə bir növbəti təxribata əl atması istisna edilməməlidir. Azərbaycan münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və Helsinki Yekun Aktı əsasında münaqişənin həll edilməsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalının nəticələrinin aradan qaldırılması, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi üçün ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə birlikdə səylərini və substantiv danışıqları davam etdirəcək".

**Millət vəkili Qənirə Paşayeva da baş verənlərə münasibət bildirib:** "Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində baş verən hadisə birbaşa Ermənistanın və işğalçı ölkənin silahlı qüvvələrinin təxribatıdır. Tovuzla, aidiyyəti qurumlarla tez-tez danışırıq. Azərbaycan Ordusu Ermənistanın təxribatının qarşısını layiqli şəkildə alıb, sərhədlərimizi, mülkü vətəndaşlarımızı qoruyublar".

**Q.Paşayeva Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Nikolay Bordyujanın baş verənləri "təxribat" adlandırmasına da toxunub:** "Amma bu təxribatı törədən ölkənin Ermənistan olduğunu deməyib. Hər zaman olduğu kimi..."

***

Ermənistan Müdafiə Nazirliyi isə ötən gün ərzində döyüşlərin davam etdiyi barədə davamlı xəbərlər yayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsurun Ovanisyanın özünün facebook səhifəsində yazdığına görə, "döyüş hələ də davam edir, tərəflər snayper silahlarından və qumbaraatanlardan istifadə edir". Üstəlik, düşmən Azərbaycanın guya 7 itki verdiyi, həlak olanların meyitlərinin guya Ermənistan tərəfdə qaldığı barədə iddialarla çıxış edib.

**Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı isə "Yeni Müsavat"a bildirdi ki, bu məlumatların heç bir əsası yoxdur:** "Azərbaycan Ordusunun guya 7 əsgər itirməsi ilə bağlı Ermənistan KİV-lərində yayılmış məlumatlar tam yalandır. Biz bir hərbçimizin itkin düşməsi barədə məlumat yaymışıq, bu faktı təsdiqləyirik. Erməni mahiyyəti növbəti dəfə özünü büruzə verdi. Ermənistan ordusunun rəhbərliyi uğursuzluqla nəticələnən təxribat əməliyyatına haqq qazandırmaq, erməni xalqı qarşısında özünü təmizə çıxarmaq məqsədilə guya Azərbaycan tərəfinin 7 nəfər itki verməsi barədə yalan məlumat yayıb. Bu xəbərin heç bir əsası yoxdur".

**"Ermənilər Azərbaycan Ordusunun qarşısını ala bilməyəcək". Bunu azvision.az-a sabiq hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə təxribat törətməsinə münasibət bildirərkən deyib. Y.Aydəmirov qeyd edib ki, Azərbaycan Ordusu hər an düşmən təxribatının qarşısını almağa hazırdır:** "Ermənilərin tək bir yolu qalıb. Düşmən ya haradasa təxribat törətməyə cəhd edir, ya da hansısa yaşayış məntəqəsini atəşə tutur. Buna da nail ola bilmirlər. Azərbaycan Ordusu düşmənə daha ağır zərbələr vuracaq. Ordumuz hər zaman erməni təxribatının qarşısını alır və alacaq. İstisna deyil ki, hər an müharibə başlaya bilər. Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bunun üçün kifayət qədər hərbi texnikamız, şəxsi heyət, maddi vəsaitimiz var".

**"Dekabrın 29-dakı təxribat rəsmi İrəvanın əvvəlcədən hazırladığı plandır". Bu fikirlər isə müdafiə nazirinin sabiq müavini, istefada olan general-leytenant Çingiz Məmmədova məxsusdur. Onun sözlərinə görə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Sankt-Peterburqda keçirilən son sessiyasında Ermənistan nümayəndə heyətinin təşkilatın üzvlərinin diqqətinin Dağlıq Qarabağ münaqişəsinə yönəldilməsi və qurumun baş katibi vəzifəsinə erməni təmsilçisinin seçilməsi cəhdlərinin boşa çıxmasından sonra KTMT-yə üzv ölkələrin diqqətini konfliktə cəlb etmək məqsədilə rəsmi İrəvan son təxribatı törədib. General Bordyujanın iddiasına da cavab verib:** "Dövlət sərhədində baş vermiş insidentdən qısa müddət sonra Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Nikolay Bordyujanın hadisəni Azərbaycanın təxribatı kimi qiymətləndirməsi təəssüf hissi doğurur. Belə ki, təxribatın və tələsik müsahibənin verilməsi vaxtlarının təqribən üst-üstə düşməsi provokasiyanın Ermənistan tərəfindən əvvəlcədən planlaşdırıldığını qeyd etməyə əsas verir. Ermənistan tərəfi planlı şəkildə və vaxtaşırı Dağlıq Qarabağa aidiyyəti olmayan bölgədə təxribatların törədilməsi barədə dezinformasiya xarakterli məlumatları yaymaqla münaqişənin miqyasını süni şəkildə genişləndirmək və təmsil olunduğu hərbi-siyasi təşkilatın digər üzvlərini də bu münaqişəyə cəlb etmək məqsədini güdür".

**Azərbaycan tərəfi itkin düşmüş Azərbaycan hərbçisi, əsgər Qurbanov Çingiz Salman oğlu ilə bağlı beynəlxalq təşkilatlarla birgə araşdırma aparır. Bu barədə APA-ya Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasından bildirilib.**

**Qəzetimiz çapa hazırlanan vaxt Müdafiə Nazirliyi ilə təkrar əlaqə saxladıqda bildirdilər ki, cəbhəboyu nisbi sabitlik hökm sürür...**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016



# "Prezidentin varlılara yönəlik çağırışları çox önəmlidir"

## Zahid Oruc: "Elə ödəmə mexanizmləri qurulmalıdır ki, böyük imarətlərə, mülklərə sahib olanlar daha çox vergi ödəsinlər"

**Azərbaycan prezidenti İlham Əliyevin Bakıda 1 saylı "ASAN kommunal" mərkəzinin açılışındakı çıxışı zamanı varlılara ünvanladığı növbəti mesaj gündəmin əsas mövzularından birinə çevrilib. Sosial ədalət prinsiplərindən danışan ölkə başçısı qaz və işıq məsələsinə də toxunub və qeyd edib ki, imkanlı, varlı insanlar, böyük evlərə, villalara sahib olan vətəndaşlar daha çox vergi ödəməlidirlər.**

Qeyd edək ki, son aylardakı çıxışları zamanı dövlət başçısı dəfələrlə imkanlı şəxslərə, iri ranqlı dövlət məmurlarına yönəlik mesajlar ünvanlayıb. Ekspertlər prezidentin son açıqlamasında bir daha bu cür fikirlər səsləndirməsini təsadüf saymırlar.

**İqtidaryönlü deputat Zahid Oruc** bildirdi ki, zənginlər üçün vergi anlayışı kapitalist dünyasının bir kəşfidir: "Ölkədə nə qədər çox istehlak edirsənsə, bir o qədər də çox ödəməlisən. Bu prinsipi vergi qanunvericiliyinə salmaq lazımdır. Ayrı-ayrı sahələrdə bunlar tətbiq olunmaqdadır. Zənginlər, varlıların torpaq sahələrinin zəbtində son bir ildə qırmızı xətti keçmələrinə də prezidentin reaksiyası olmuşdu. Hamı yaxşı bilirdi ki, bu imkanlar kasıb bir şəxsə məxsus ola bilməzdi. Söhbət hektarlarla torpaq sahələrindən gedirdi. Kimsə bolşevikcəsinə buna qarşı deyil. Dövlətimizin yürütdüyü siyasət bundan ibarət olub ki, hamı imkanlı olsun, hamı yaxşı yaşasın. Təbii ki, şəxslər bunu vəzifə səlahiyyətlərindən istifadə edib reallaşdırmamalıdır, mənimsəmələr və başqa qanunsuz yollarla əldə etməməlidir. Varlılara qarşı ictimai nifrət də formalaşdırmaq olmaz. 2013-cü ildə hakimiyyət əleyhdarları Badamdar qəsəbəsi və digər bəlli ünvanları barmaqla göstərərək, hakimiyyətə gələcəkləri təqdirdə o villaları satdırıb, büdcəyə vəsait gətirəcəklərini deyirdilər. Bu yanlış yanaşma idi. Sadəcə, elə ödəmə mexanizmləri qurulmalıdır ki, böyük imarətlərə, mülklərə sahib olanlar daha çox vergi ödəsinlər. Sonuncu dəfə vergi qanunvericiliyinə edilən dəyişikliklərin içərisində bahalı maşınlarla bağlı hissələr də var. Avropa ölkələrində bu, tətbiq olunmuş modeldir. Düşünürəm ki, ölkəmizdə də bu qəbul olunmalıdır. Əhalinin aztəminatlı hissəsinin vəziyyətini yaxşılaşdırmağın yollarından biri də budur. Sosial ədalət prinsiplərinin yaranması üçün də bu çox vacibdir. Böyük ərazilər tutursan, imkanın kifayət qədər yüksəkdir, o zaman çox vergi ödə. Bu çox normal bir yanaşmadır".

**Deputat prezidentin mesajından varlıların ibrət dərsi götürə biləcəyini də vurğuladı:** "İnsanlar ictimai mədəniyyət olaraq, könüllü şəkildə rəsmi proseslərə qoşulmağa meylli olmurlar. Bu, zamanla yaranan bir məsələdir. Biz Avropa ölkələrinin inkişaf etməsindən, texnologiyada inqilab etmələrindən danışanda, qanunlara əməl etdiklərini deyəndə, bunları bəzən onların mental xüsusiyyətləri kimi qələmə veririk. Amma əslində belə deyil. Kimsə varlılarla savaşa çıxmır. 70-ci illərdə Nikson iri burjuaziya və xırda sahibkarlarla bağlı belə qərarlar verəndə prosesin nə qədər həssas olduğunu gördü. Yaxşı şərtlər asan bitmir. Onlar müqavimətlə rastlaşır. Bu cəhətdən ölkə başçısı iradə qoyub. Hesab edirəm ki, 2017-ci il bu istiqamətdə böyük dəyişikliklər, islahatlar ili olacaq. Hamı da bunu qəbul etməlidir. Ölkədə maddi nemətlərdən daha çox istifadə edirsənsə, niyə də çox ödəməməlisən? Ölkə sənə niyə ucuz xidmət etməlidir? Bu, sırf publisistik mənəvi yanaşmadır. İstəmirsən, daha fərqli şəraitə keç. Kimsə öz böyük villalarını, əmlaklarını kimlərinsə adına rəsmləşdirəcək, hətta məcburi köçkünlərin adına keçirəcək, bu şəkildə özünü qoruyacaqsa, bu, çox qüsurlu bir fəaliyyətdir. Bu baxımdan, hesab edirəm ki, qanunların daha sərt üzü ilə bu proseslərə getmək lazımdır. Çağırışlar çox önəmlidir. Prosesləri hüquqi aktlarla tamamlamaq lazımdır".

❑ Cavanşir ABBASLI



# Millət vəkili Yeni ildə şamaxılılara məktəb binası hədiyyə etdi

## Elxan Süleymanov: "Hər bir imkanı olan şəxs dövlətimizə, xalqımıza kömək etməlidir"

**Dekabrın 28-də Şamaxıda Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə fərqli bayram tədbirləri baş tutdu.**

Əvvəlcə Şamaxının millət vəkili Elxan Süleymanov rayonun Böyük Xınıslı kəndindəki uşaq bağçasında balacalarla görüşdü və onlara bayram sovqatı təqdim etdi.

E.Süleymanov uşaq bağçasının binasının çox kiçik olduğunu və standartlara uyğun gəlmədiyini müşahidə etdi. Bəlli oldu ki, bu bina sovetlər dönəmində anbar olub, indi isə bağça kimi istifadə edilir. Millət vəkili dedi ki, Böyük Xınıslıda yeni, standartlara uyğun uşaq bağçasının tikilməsi üçün bütün imkanlarını səfərbər edəcək, müvafiq qurumlarla əməkdaşlıq edilərək, 2018-ci ilədək yeni bağçanın tikilib istifadəyə verilməsinə maksimum səy göstərəcək: "Əminəm ki, 2018-də sizə yeni bağça tikib təhvil verəcəyik".

Daha sonra E.Süleymanovun seçki qərargahının könüllüləri Şamaxı rayonunun məktəbəqədər təhsil müəssisələrində tərbiyə alan 1200 uşağa və 76 Qarabağ şəhidi ailəsinə Elxan Süleymanovun adından Yeni il hədiyyələrini çatdırdılar.

Şamaxıda 1200 uşağa və 76 Qarabağ şəhidi ailəsinə sovqatlar çatdırılması ənənə halında həyata keçirilir; 6 ildir ki, bayramlarda sovqatlar təqdim olunur, onlar əlamətdar günlərdə sevindirilir...

Daha sonra Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzində təntənəli bayram tədbiri keçirildi. Tədbirdə çıxış edən Elxan Süleymanov seçicilərini Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik etdi. Ardınca o, Şamaxının millət vəkili olduğu dövrdə mükafatlandırdığı istedadlı və əlaçı uşaqları - Sabir qiraət müsabiqəsi qaliblərini və təsis etdiyi əlaçı təqaüdünün sahiblərini səhnəyə dəvət etdi. E.Süleymanov bu müddət ərzində təqaüd və mükafatlar alan uşaqlardan 44 nəfərin artıq universitetə daxil olduğunu dedi: "Bütün bu yeniyetmə və gənclərlə fəxr edirəm". Təqaüdçülərə də bayram hədiyyələri təqdim olundu.

**E.Süleymanov çıxışında dövlətin təhsilə qayğısından danışdı:** "Hər zaman cənab prezident İlham Əliyev, birinci ledi Mehriban xanım Əliyeva təhsilə xüsusi diqqət və qayğı göstərir. Təəssüflər olsun ki, bizim bir çox iş adamlarımız, imkanlı şəxslərimiz dövlətə bu işlərdə kömək etmirlər. Bu gün bütün dünyanı iqtisadi böhran bürüyüb və neftin qiymətinin düşməsi ilə əlaqədar Azərbaycandan da təbii olaraq bu çətinliklər yan keçməyib. Belə durumda biz hamımız əl-ələ tutmalıyıq, hər bir imkanı olan şəxs dövlətimizə, xalqımıza kömək etməlidir. Əslində dünyanın əksər ölkələrində vətəndaşların hər şeyi dövlətdən umması anlayışı da yoxdur. İnsanlar da dövlət üçün çalışmalıdır. Mən 2015-ci ildə Şamaxının Ərçiman kəndində müasir standartlara cavab verən, bütün avadanlıqla təchiz edilən, isti sinif otaqları olan məktəb binasını tikdirib istifadəyə verdim. Çox təəssüf ki, müvafiq qurumlar hələ də həmin məktəbə 11 illik məktəb statusu verməyiblər və yenə də bu ucqar dağ kəndinin uşaqları təhsillərini davam etdirmək üçün neçə kilometr çətin yollar qət edərək, qonşu kənddəki orta məktəbə getmək məcburiyyətindədirlər. Hansı ki, həmin qonşu kənddəki məktəbdə Ərçiman kəndində bizim tikdirdiyimiz məktəb binası standartları yoxdur, qəzalı bir məktəb binasıdır. Ümid edirəm ki, tezliklə Ərçiman kəndindəki məktəb binasına 11 illik məktəb statusu veriləcək...

Bir neçə ay öncə isə müraciət edildi ki, Şamaxının Məlcək kəndindəki məktəb binası tam yararsız vəziyyətdədir, döşəmə belə dağılıb, partalar torpağın üstünə düzülüb. Mən bu gün şamaxılılara sevincli bir xəbər vermək istəyirəm: qərar verdim ki, həmin kənddə müasir bir məktəb binası inşa edək. Həmin binanın eskiz layihəsini artıq hazırlatmışam və işlər maksimum qısa müddətdə başa çatdırılacaq. Bu məndən şamaxılılara Yeni il hədiyyəsi olsun. İnşallah, 2017-ci ilin sentyabrında yeni dərs ili başlayanadək 10 otaqlı, idman zalı, meydançası olan məktəb binasını tikib tam istifadəyə verəcəyik".











**Millət vəkili yeni məktəb binasının eskiz layihəsini Məlcək kəndinin bələdiyyə sədrinə təqdim etdi və daha sonra Böyük Xınıslı kəndində də uşaq bağçasının tikilməsinə köməklik göstərilməsini rayonun icra başçısından da xahiş etdi:** "Biz birlikdə 2018-ci ilədək uşaq bağçasını da tikib təhvil verəcəyik".

**E.Süleymanov həmçinin qeyd etdi:** "Mənə Əli İsgəndərov adlı körpənin anası müraciət etdi, balasının ürəyi əməliyyat olunmalıdır. Onun dərmanlarının alınmasına tələb olunan aylıq 100 manat xərcin ayrılmasına göstəriş verdim. Əməliyyatı üçün isə 19 min manat tələb olunurdu, buna indiki anda gücümüz çatmırdı. Amma dərhal cərrah, deputat həmkarım Rəşad Mahmudovla danışdım, o, həmin əməliyyatı təmənnasız olaraq həyata keçirəcəyini, lazım olarsa ailəyə əlavə köməklik göstərməyə də hazır olduğunu dedi".

Daha sonra söz alan tanınmış şair Musa Yaqub tədbir iştirakçılarına bayram təbriklərini çatdırdı. O, "təhsilin inkişafı üçün atılan addımları, insanlara əl tutmağı müqəddəs işlərdən hesab edirəm. Bu cür xeyirxah işlər bir nümunə olmalıdır" - deyə qeyd etdi.

Çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev şamaxılıları Yeni il münasibətilə təbrik etdi, rayonda görülən işlərdən danışdı və bildirdi ki, qarşıdakı ildə də quruculuq, abadlıq işləri üçün əlindən gələni edəcək.

Daha sonra tədbir bayram konserti ilə davam etdi. Əməkdar artistlər Elnarə Abdullayeva, Şirzad Fətəliyev, Aşıq Ağamurad, Aşıq Rza, muğam ifaçıları Abgül Mirzəliyev, Ümid Əsgərov, Zamir Balayev, Habil Şıxəliyev, Mütəllim Dəmirov, Şamaxı Şəhər İncənət Təhsili Mərkəzinin instrumental ansamblı (bədii rəhbər - Antik Seyidov), rəqs və "Nağaraçılar" qrupu tamaşaçılar qarşısında çıxış etdilər.

❑ Elşad MƏMMƏDLİ

# İqbal Ağazadə üçün sirli 17 rəqəmi -2017-dən nə gözləyir?

## Ümid sədri: "Mistik də, qeyri-mistik də olsa, hər halda, bunlar var"

**Ümid Partiyasının sədri İqbal Ağazadə 2017-ci illə bağlı siyasilərin, astroloqların proqnozları, partiyasının gələn il üçün planları, 17 rəqəminin şəxsi həyatı üçün izləri barədə "Yeni Müsavat"a danışıb.**

**İqbal Ağazadə** öncə qeyd etdi ki, hər kəsə, o cümlədən astroloqlara da inanmağa çalışır. Amma heç bir halda başqalarının dediyinin üzərində nəticə hasil eləmir: "Çalışıram ki, özüm təhlil edim və özüm qənaətə gəlim. Təhlillərim onu göstərir ki, məsələn, 2017-ci ildə Rusiyanın vəziyyəti heç də Azərbaycanın, Qazaxıstanın, Belarusun vəziyyətindən yaxşı olmayacaq. Gəldiyim qənaət budur ki, 2017-ci il təkcə Azərbaycanla bağlı deyil, ümumiyyətlə, çoxvektorlu inkişaf mərhələsində olan ölkələr üçün ağır il olacaq".

**İ.Ağazadə bildirdi ki, Ümid Partiyası olaraq hakimiyyətə gəlmək üçün hər il qarşılarına bir məqsəd qoyurlar:** "Biz hakimiyyətə gəlməyi planlayırıq. Başqa bir məqsədimiz də yoxdur. Çalışırıq ki, Azərbaycan Konstitusiyasının, "Siyasi partiyalar haqqında" Qanunun imkan verdiyi çərçivədə fəaliyyət göstərib hakimiyyətə gələ bilək və ölkəmizin vəziyyətini dəyişək. 2017-də də bu istiqamətdə çalışmalarımız olacaq və 2017-ci il çox maraqlı olmalıdır. Nə dərəcədə buna nail olacağıq, bu da zamandan və təbliğatımızı necə qurmağımızdan asılı olacaq".



**"Rəqəmlərin düşərli olub-olmadığını sınamısınızmı, 17 rəqəmi Sizin üçün düşərli rəqəmlərdəndir, yoxsa əksinə" sualına İqbal Ağazadənin cavabı belə oldu:** "Rəqəmlərin düşərli olub-olmadığını sınamamışam. Amma maraqlıdır ki, mən ayın 17-də anadan olmuşam, 17-də ailə qurmuşam, 17-də ali məktəbə daxil olmuşam, 17-də həbs olunmuşam, 17 ay həbsdə olmuşam və sair. Hətta mən partiyanın başına gələndə-mən təsəvvür etmirdim ki, partiyanın başına gələ bilərəm-Ümid Partiyasının Ədliyyə Nazirliyində qeydiyyatı ilə bağlı şəhadətnaməni alanda baxdım ki, qeydiyyat ayın 17-si yazılıb".

**"Bu qədər çoxsaylı təsadüf mümkündürmü, yoxsa hansısa mistik nə isə axtarmaq lazımdır burada" sualını isə İ.Ağazadə belə cavablandırdı:** "Mistik də, qeyri-mistik də olsa, hər halda, bunlar var. Sizə də deyirəm ki, 2017-ci il mənim üçün uğurlu il olacaq".

❑ **Etibar SEYİDAĞA**

# Etibar Məmmədov siyasətə qayıdır-iddia

## Əli Orucov: "O gün uzaqda deyil"

**2003-cü ilə qədər Azərbaycan müxalifətinin əsas simalarından sayılan AMİP lideri Etibar Məmmədov 13 ildən sonra geri dönüş etməyə başlayıb. Uzun müddət mətbuatdan demək olar ki, tamamilə uzaqlaşan, ictimaiyyət qarşısına çıxmayan partiya lideri son günlərdə ara-sıra görünməyə başlayıb.**

Zaman-zaman E.Məmmədovun siyasətlə vidalaşdığı, daha çox biznes fəaliyyətinə önəm verməsi ilə bağlı mətbuatda çoxsaylı xəbərlər gedib. Doğrudur, o, 2003-cü il seçkilərindən sonra partiya sədrliyindən istefa verəndən, qurumun lideri olandan sonra artıq onun siyasi fəaliyyətinin sona çatması barədə çox fikirlər səsləndi. İllər keçdikcə də, bu adın getdikcə unudulduğunun şahidi olduq.

**Günlər öncə Güney Azərbaycanla bağlı keçirilən tədbirdə görünən E.Məmmədov bundan sonra ölkədəki iqtisadi böhranla bağlı media qarşısına çıxıb və önəmli açıqlamalar verib. "Gununsəsi.info"ya açıqlamasında o, yeni hökumətin qurulmasının vacibliyindən danışıb:** "Mənim fikrimcə, rəhbərlik bu barədə ciddi şəkildə düşünməlidir ki, gündəlik fəaliyyət göstərə bilən hökumət qursun. Prezident bəzi sahələrin inkişafı ilə bağlı sərəncamlar verir. Sonradan həmin sərəncamların icra olunmaması ilə qarşılaşırıq. Bunun da qarşısını almağın tək və yeganə yolu normal fəaliyyət göstərən hökumət formalaşdırmaqdır. Belə bir hökumətə ehtiyac var".



**Azərbaycanın kredit reytinqinin də aşağı olduğunu vurğulayan E.Məmmədov bildirib ki, vəziyyət təcili dəyişməlidir:** "Hazırda Azərbaycanın kredit reytinqi aşağıdır. Kreditlər alınmalı və alınan kreditlər isə qaytarılmalıdır. Kreditlər istehlak krediti ola bilməz. Kreditlər islahatlar üçün alınmalıdır. Alınan kreditlər hansısa nazirlərin irəli sürdükləri təkliflər əsasında alınmamalıdır. Yol xəritəsi olmalıdır. Ancaq hökumət bunun ətrafında hələlik bir iş görmür. Bizim yatmış hökuməti tezliklə dəyişib normal hökumət qurulmalıdır".

**AMİP liderinin bu açıqlamalarını onun siyasətə geri dönüşü kimi izah edənlər var.**

**E.Məmmədovun köməkçisi Əli Orucov "Yeni Müsavat"a açıqlamasında onun ölkə siyasətində böyük uğurlara imza atdığını söylədi:** "Etibar bəyin siyasətdən getməsi ilə bağlı fikirlərlə razı deyiləm. O, siyasətdən heç vaxt kənarda qala bilməyib. Son 13 il ərzində müəyyən məsələlərə Etibar bəy öz mövqeyini bildirib. O, Azərbaycan vətəndaşı kimi ölkədəki durumu yaxşı bilir. Prosesləri daim izləyir və öz narahatçılığını dilə gətirir. Cəmiyyətin ona böyük ehtiyacı var. Gələcəkdə ölkədə davam edən iqtisadi böhran bu zərurəti daha da artıracaq. Buna qətiyyən şübhəm yoxdur. Etibar bəyin son açıqlaması böyük siyasətə qayıdışı kimi qəbul olunmamalıdır. Sadəcə, vətəndaş kimi narahatçılığını ifadə edib. Etibar bəy bu gün böyük bir partiyanın lideridir. Onun və partiyasının mövqeyi ölkədə sükutla qarşılanmır, böyük əks-səda doğurur. Etibar bəy bu gün mətbuatda və aktiv siyasətdə görünməsə də, ölkə siyasətinin ən ağır çəkili lideridir. Hər kəs görür ki, onun son açıqlamasına cəmiyyət necə də diqqətlə yanaşdı, böyük önəm verdi. Əminəm ki, gələcəkdə Etibar bəyin siyasətə qayıtmasını cəmiyyətin özü qəti şəkildə tələb edəcək. O gün uzaqda deyil. Ola bilsin ki, Etibar bəyin siyasətə qayıdışı özünün iradəsindən asılı olmayan məsələyə çevrilsin. Çünki xalq tələb edəcəksə, başqa yol da qalmayacaq. Bunun da olacağı gözlənilləndir. Etibar bəy xalqın övladı, təcrübəli siyasətçi kimi bu istəyə cavab verməyə məcburiyyətində qalacaq. Hazırda belə fikirlər səsləndirilir ki, xalqın bu durumdan çıxması üçün xalqı arxasınca aparacaq lider yoxdur. Amma bu lider var, özünüz də görürsünüz ki, onun fikirləri cəmiyyətdə necə rezonans doğurur. Yaxın zamanlarda xalqın istəyi ilə Etibar bəyin siyasətə qayıdışının, proseslərin önündə olduğunun hamımız şahidi olacağıq".

**A.Orucov AMİP liderinin yenidən təşkilata sədr kimi gəlmə ehtimallarının olmadığını da qeyd etdi:** "AMİP-in nizamnaməsi var və novator idarəetməyə keçmişik. Etibar bəyin partiyaya sədr kimi qayıtması ehtimalını yüksək saymıram. Çünki o daha yüksək statusdadır, yeni liderdir".

**E.Məmmədovun köməkçisi liderinin dəstəyinin təkcə partiyada olmadığını bildirdi:** "Sizləri əmin edirəm ki, Etibar bəyin dəstəyi təkcə AMİP-dən ibarət deyil. Kənarda partiya üzvü olmayan, hətta hakimiyyətin daxilində Etibar Məmmədovun çox böyük dəstəyi var".

❑ **Cavanşir ABBASLI**

# Haray bəri başdan...



**Xalid KAZIMLI**

**Terror aktı elə bir hadisədir ki, o baş verəndən sonra uzun-uzadı danışmağın, müzakirə aparmağın, versiyalar irəli sürməyin heç nəyə faydası olmur.**

Çünki baş verən hadisə artıq kifayət qədər səs-küy doğurmuş, insanları sarsıtmış, qorxutmuş olur. Bu, terror aktının sifarişçilərinin öz məqsədlərinə çatması deməkdir.

Onlar hardasa uzaqlarda - bunkerlərdə, əlçatmaz yerlərdə oturur, əlaltıları vasitəsilə fanatiklər ordusu arasından seçilib ölümə göndərilən kamikadzelərin məşum hərəkətindən əldə edəcəyi dividenti hesablayır.

Təcrübə göstərir ki, bir terror aktı nə qədər şiddətli olsa da, çox qurban aparsa da, onun səs-küyünün ictimai planda 2-3 gün ömrü olur, sonra hər şey unudulur. Ondan sonra terrorçular məqsədlərinə çatmaq üçün yeni teraktlar törətmək zorunda qalırlar.

Yeni teraktdan da bir-iki gün danışılır. Sonra daha biri, daha biri... Və gün gəlir ki, 15-20, hətta 50-60 insanın ölümü ilə nəticələnən terror aktları artıq ajiotaj doğurmur, adiləşir, adi statistika predmetinə çevrilir.

Artıq İraqda törədilən teraktların sayı-hesabı itib və dünya informasiya məkanındakı yerini də itirib. İndi bu ölkədə baş verən bu sayaq hadisələrə xəbərlər bülletenlərində 3-4 cümlə həsr olunur və məsələ bitir.

Eyni hadisə illərlə terror aktı baş verməyən, hətta qalmaqallı cinayət hadisəsi az-az törədilən sabit ölkələrdə olanda isə aləm bir-birinə qarışır, ictimaiyyət son dərəcə həyəcanlanır, hakimiyyət təcili tədbirlər görür, rəsmi və qeyri-rəsmi fövqəladə vəziyyət rejimi tətbiq olunur və s.

Terror baxımından daxili sabit olan ölkələrdə terrora qarşı görülən preventiv tədbirlərdə kütləvi həyəcanla müşayiət olunur, hakimiyyət strukturları səfərbər olunur, insanlar gərginləşir.

Əlbəttə, terror aktından sonrakı çaxnaşma və gərginlikdənsə, öncədən həyəcanlanmaq və önləyici tədbirlər görmək daha yaxşıdır.

Budur, ölkəmizdə terroru həyəcanı var. Bəzi konsert tədbirləri təxirə salınıb, orta məktəblərdə yeni il şənlikləri ləğv edilib. O qədər ciddi olmasa da, insanlarda əndişə var.

Belə anlaşılır ki, hüquq-mühafizə orqanları hələlik bəzi tədbirləri "hər ehtimala qarşı" görürlər, əldə konkret fakt, informasiya olsaydı, real əməliyyatlar həyata keçirərdilər. Əvvəllər heç kimin gözləmədiyi halda anti-terror tədbirləri həyata keçirilib.

İndilikdə bilinən odur ki, yaxın xaricdə, region ölkələrinin müxtəlif dairələrində açıq və gizli şəkildə səslənən hədələri, xəbərdarlıqları gözardı etmək olmaz.

Yeni il şənlikləri ilə bağlı bəzi ölkələrdə törədilən terror aktlarına dair bir neçə fakt və onlarla təhdid halları var.

Vahid bir gövdənin - beynəlxalq terror təşkilatının ayrı-ayrı ölkələrdə qollarının, simpatizanlrının olması heç kəsə sirr deyil və istənilən gün istənilən ölkə hədəf halına gətirilə bilər.

Məsələ ondadır ki, silahlı mübarizədə din faktorundan gen-bol yararlanmağa çalışan terror təşkilatı günəş təqvimi ilə yeni ilin başlanmasını qeyd edən ölkələrə qarşı terror aktları keçirmək, bir növ onların "bayramını qara gətirmək" barədə düşünürlər.

Azərbaycan müsəlman ölkəsi olsa da, gün, ay, il məsələsində Avropa ölkələrinin tətbiq etdiyi təqvimlə yaşayır və hər il dekabrın 31-də yeni ilin başlanğıcını qeyd və bayram edir. Məhz bu xüsusat ölkəmizi bəzi terrorçu dairələrin qəzəbinə gətirə bilər. Çünki ötən illərdəkindən fərqli olaraq, bu il bu məsələyə daha həssas münasibət var.

Əslində konsert və şənliklərin ləğv olunması dolayısı ilə həmin terrorçu qrupları daha da şirnikləndirə bilər və onlar hesab edə bilərlər ki, bu sayaq təzyiq yolu effekt verir, bir işə yarayır.

Bununla belə, ümid etmək olar ki, ölkədəki müvafiq kriminogen durum nəzarətdədir və hüquq-mühafizə orqanları hər hansı bir təxribat törədə biləcək şəxslərin, ekstremizmə meylli insanların şəbəkəsi haqda məlumatlıdır.

Terrorçular elə bir kastaya aiddirlər ki, onlarla mübarizədə hər hansı tərəddüdə, qətiyyətsizliyə yol vermək faciəvi nəticələr doğurur. Necə deyərlər, haray bəri başdan.

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016



# Yığışdırılmayan türmələr

Zamin HACI
zaminhaci@gmail.com

**Siyasi dustaq, AXCP üzvü Məmməd İbrahim cəzasının üçdə birini çəkdiyi üçün məntəqə tipli türməyə köçürülmək istəyir, ancaq məhkəmə onu ümumi türmədə - 16 saylı cəzaçəkmə müəssisəsində saxlamaq qərarı verib. Bu zaman həmin 16 saylı türmənin əməkdaşı Tacəddin müəllimin rəyi əsas götürülüb. Tacəddin müəllim deyib ki, Məmməd bəyin cəzasını yüngülləşdirmək lazım deyil, çünki o, türmədə bizim sözümüzə baxmır, yatdığı yeri yığışdırmır, ərazini süpürmür.**

Birinci dəfə deyil, insanlara türmədə zülm etmək üçün bu tip bəhanələri çox görmüşük. İndi yadıma ikisi düşür. Bir dəfə jurnalist Qənimət Zahidin də cəzasını yüngülləşdirməkdən bənzər bəhanə ilə imtina edilmişdi, türmə rəisi demişdi ki, Qənimət bəy dustaqlar arasında voleybol yarışına qatılmayıb. Müsavatçı Yadigar Sadıqovu da həmin bu andıra qalmış (çünki kağız üzərindədir, real tətbiqini kimsə görməyib) "üçdə bir" maddəsinə salmaqdan imtinanı Qaradağ Rayon Məhkəməsi 14 saylı türmədən gəlmiş xarakteristika sənədi ilə əsaslandırmışdı, orda isə belə yazılıbmış: "Yadigar Sadıqov peşmançılıq hissi keçirmir, bütün günü, səhərdən axşamacan kitab oxuyur".

Doğrusu, bizim Ədliyyə Nazirliyinin hazırladığı türmələrdə davranış qaydalarına görə bu əməllər - yerini yığışdırmamaq, bütün günü ancaq kitab oxumaq, voleyboldan imtina və sairə belə absurd hərəkətlər pozuntu sayılır. Buna əsaslanıb dustağın cəzasını yüngülləşdirməyə bilərlər. Kağız-qələm öz əllərində deyilmi? Nə cür daxili qayda istəsən, yaz getsin. Kim sənə gözün üstündə qaşın var deyə bilər?

Hətta lazım gəlsə, bunu dünyadakı başqa absurd qanun-qaydalarla tutuşdurub haqq qazandırarlar. Örnək üçün, ABŞ-ın Nyu York şəhərində tramvayda dovşan ovlamaq qadağandır. Avstraliyada insanlara ağcaqanadları... dişləmək qadağan edilibdir. Andorrada arvadı ancaq yastıqla döymək olar. Efiopiyada isə, inanmazsınız, adamı kartofdan artıq qızartmaq qadağandır. Bizdə şükürlər olsun, belə qanunlar hələlik qəbul edilməyibdir. Biz insanları qızartmırıq, ancaq soyutma və xaş edirik. Ancaq məni məsələnin başqa yönü düşündürür.

Hər dəfə türmələrdən gəlib məhkəmədə "filankəs islah olunmayıb, cəzasını azaltmayın" deyib arxayın şəkildə çıxıb gedən türmə işçiləri var. Bəs bunları niyə cəzalandıran yoxdur? Yuxarıda söhbət açdığım Tacəddin müəllimə niyə "tacını hardan almısan" deyilmir? Axı türmənin vəzifəsi təkcə qapını bağlayıb adamı boğmaq deyil. Orda insanlar islah olunmalı, tərbiyələnməli, təzədən cəmiyyətə qayıtmalıdır. Əgər dustaq islah edilməyibsə, bu, həm də türmə rəhbərliyinin günahıdır. Təəssüf ki, biz buna görə cəzalanan rəislər görmürük. Ümid edirəm Ədliyyə Nazirliyi yaxın gələcəkdə qaldırdığım məsələyə diqqətlə yanaşacaqdır. "Üçdə bir" ala bilməyən məhkumları çox olan rəislərin maaşından üçdə biri cərimə tutulsun. Misal üçün. Yoxsa elə fəxrlə gəlib məhkəmədə deyirlər ki, dustaq islah olunmayıb, sanki buna görə medal almalıdırlar. Bəlkə almalıdırlar, nə biləsən...

Ümumiyyətlə, bizdə çox adam öz işiylə düzgün məşğul olmur. Dövlət Təhlükəsizlik Xidməti hazırda valyuta alverçilərini tutur, məlum deyil kiminsə ağacın dibində başqasına dollar satmasının dövlətçiliyimizə hansı təhlükəsi var. Özü də bankda dollar yoxdursa, camaat bunu hardansa almalı deyilmi?

Üstəlik, bu "qanunsuz valyuta alveri" çox absurd maddədir, kiminsə cibinə nəşə atıb tutmaq tipində bir şeydir. İstədiyin adamı bu maddə ilə ilişdirmək olar. Yəni sən küçədə DTX-nin əməkdaşının gözü qabağında bir dostuna 100 dollar ver, əvəzində manatla pulunu al - səni tutmaq olar. Sivil dünyada belə şeyləri, o cümlədən kiminsə marixuana istifadə eləməsini *(bir ot ki, təbii şəkildə çöldə bitir və hər kəsin əlinə düşə bilər, burda cinayət tərkibi absurddur)* artıq cinayət kateqoriyasından çıxarırlar. Ən son Gürcüstan marixuanadan istifadəni cinayətlər sırasından sildi. Gör indi orda türmələr necə boşalacaq. Bizdə isə iki ot yarpağına görə tutulan, bədbəxt edilən minlərlə adam var, türmələrdə də yer qalmayıb.

# Səngəçalda partlayan magistral qaz kəmərləri ilə bağlı sensasion etiraf

## SOCAR rəsmisi qəza baş verən kəmərlərlə "Şahdəniz" və "Azəri-Çıraq"dan quruya qaz nəql olunduğunu açıqladı

**Xəbər verildiyi kimi, dekabrın 27-si səhər saatlarında Səngəçal qəsəbəsinin Əzimkənd ərazisində 125 atmosferlik 2 magistral qaz kəmərlərində güclü partlayış baş verib. Həmin magistral kəmərlərlə bağlı sensasion təfərrüat məlum olub.**



SOCAR-ın rəsmi facebook səhifəsinə (https://www.facebook.com/SOCARofficial/) qurumun Qazixrac İdarəsinin rəis müavini Nazim Səmədzadənin videomüsahibəsi yerləşdirilib. N.Səmədzadənin sözlərindən aydın olub ki, partlayan Azərbaycan üçün iqtisadi və siyasi baxımdan çox önəmli olan Xəzər dənizindəki "Şahdəniz" və "Azəri-Çıraq" neft-qaz yataqlarından quruya qaz nəql olunan magistral kəmərlərdir.

**Saytda yerləşdirilən videomüsahibə magistral qaz kəmərinin partlayan hissəsinin fonunda təqdim olunur. Görünür ki, N.Səmədzadə hadisə yerində olub və real vəziyyəti öyrəndikdən sonra vəziyyət haqda danışıb. Rəis müavininin dediklərindən sitat:** "Vəziyyət belədir. Yanğın lokallaşdırılır. Yanğın 15-20 dəqiqəyə sönməlidir. Bundan sonra biz qəza-bərpa işlərimizə başlayacağıq. Hazırda respublika ərazisinə qəbul edilən qaz tam şəkildə qəbul olunur. Həm "Şahdəniz", həm "Azəri-Çıraq" və "Nərimanov Ümid"dən qaz qəbul olunur, respublika ərazisində paylanması həyata keçirilir. Düzdür, bu 2-3 saat ərzində bizdə müəyyən çətinliklər yarandı. Boru xətlərini bağlayıb qazı digər xətlərlə yönəltməklə müəyyən bir vaxt keçdi, ancaq hazırda Bakı şəhəri tam qazla təmin olunur".

Məlumat üçün deyək ki, Azərbaycanın Xəzərdəki "Şahdəniz" yatağından (Faza-I) hasil edilən qazın bir hissəsi (təxminən ildə 7,7 milyard kubmetr) Bakıdan Türkiyənin Ərzurum şəhərinə nəql edilir. Uzunluğu 970 kilometr, yükgötürmə qabiliyyəti isə ildə 30 milyard kubmetr olan kəmər Bakı-Tbilisi-Ceyhan kəmərinə paralel çəkilib. Türkiyə ilə bağlanmış müqaviləyə müvafiq olaraq, Türkiyə bu kəmər vasitəsilə 15 il ərzində 91,0 milyard kubmetr qaz almalıdır. 2007-ci il martın 13-də ilk "Şahdəniz" qazı bu kəmərə vurulub. Cənubi Qafqaz Neft Kəməri Azərbaycan qazının təkcə Türkiyə bazarlarına deyil, oradan Avropa bazarlarına nəqli üçün də imkanlar açır. Artıq Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Azərbaycan qazı Türkiyədən Yunanıstana nəql olunub. Bundan başqa, dənizdəki neft-qaz yataqları Azərbaycanın qazla təminatında idxaldan asılılığı tamamilə aradan qaldırıb. 2007-ci ildən bu yana Azərbaycan Rusiyadan qaz almağı dayandırıb və tələbatı



bütünlüklə daxili mənbələr hesabına təmin etməyə başlayıb.

**Partlayışdan sonra SOCAR-ın yaydığı xəbərə görə, ilkin baxış bir neçə versiyanı nəzərdən keçirməyə imkan verir:** "2002-ci ildə tikilib istismara buraxılmış qaz kəmərində baş verən qəzanın mümkün səbəbləri arasında qayнağın və ya boru materialının keyfiyyətinin aşağı olması, yaxud kəmərin keçdiyi ərazinin aqressiv və sürüşkən zonada yerləşməsi nəticəsində aşınmaya məruz qalması ehtimalları nəzərdən keçirilir. İlkin baxış qəzanın texnogen xarakter daşıdığını təsdiq edir. Araşdırma işləri yekunlaşdıqdan sonra nəticələr barədə əlavə məlumat veriləcək".

15 ilə əvvəl istifadəyə verilmiş magistral qaz kəmərlərinin aşınmaya məruz qalması nə dərəcədə inandırıcıdır? Hər halda, bu suallara mütəxəssislər aydınlıq gətirməlidirlər.

Qeyd edək ki, magistral qaz kəmərlərində baş verən yanğınla müşayiət olunan partlayışdan 1 gün əvvəl youtube kanalında bir İŞİD ardıcılı olan azərbaycanlının videomüraciəti yerləşdirilib. İŞİD-çi İraqın Mosul şəhərindən Azərbaycan xalqına müraciət edir. Müraciətində Azərbaycanı "darul-küfr" (küfr evi) adlandırıb. Mətbuatda "Azərbaycanlı İŞİD-çi Azərbaycan xalqına müraciət etdi: Çıxın, vurun, öldürün, bıçaqlayın" başlığı ilə tirajlanan bu video Səngəçaldakı partlayışdan 1 gün əvvəl - 26 dekabr 2016-cı ildə yayılıb.

Azərbaycanlı olması şübhə doğurmayan şəxs Mosulun xarabalıqları fonunda bu təriqətin ölkəmizdəki ardıcıllarını küçələrə səsləyir, deyir ki, xəlfənin vəsiyyətinə əsasən hicrət edə bilməyənlər "onların (yəni Azərbaycanda yaşayan əhalinin - E.M.) gündüzlərini gecə, gecələrini gündüz edin".

Artıq həmin video youtube kanalından silinib. Həmin videomüraciətlə partlayış arasında birbaşa əlaqənin olmasını iddia etmirik. Ötən yazımızda da qeyd etdiyimiz kimi, sadəcə, müraciətlə partlayışın üst-üstə düşməsi, müəyyən şübhələr yaradır.

Dekabrın 29-da Bakıda daha bir güclü partlayış olub, bu dəfə nazirlik əməkdaşları yaralanıb. Bakının Badamdar qəsəbəsində, Badamdar yolu 5 ünvanının qarşısındakı kanalizasiya quyusunda olan kabellərə texniki baxış keçirilən zaman quyuda yığılmış metan qazı partlayıb. Nəticədə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" İB-nin mühəndisləri - 1963-cü il təvəllüdlü Qasımov Namiq Mirzə oğlu və Kazımov Fərman Ziyad oğlu yanıq xəsarətləri alıb. Hər iki şəxsə təcili tibbi yardım göstərilib. Vəziyyəti daha ciddi olan Fərman Kazımov Respublika Yanıq Mərkəzinə yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.

Bu arada Azərbaycanda polis gücləndirilmiş iş rejiminə keçib. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar 2016-cı il dekabrın 31-dən 2017-ci il yanvarın 5-dək daxili işlər orqanlarının şəxsi heyəti gücləndirilmiş iş rejimində işləyəcək. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumata görə, bununla bağlı daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb.

Xəbər verdiyimiz kimi Bakıda illərdir ki, dekabrın 31-də Yeni il bayramı ilə əlaqədar Dənizkənarı Milli Parkda keçirilən ənənəvi konsert proqramı da ləğv olunub. Son məlumata görə, Bakı məktəblərində keçirilməsi planlaşdırılan Yeni il şənlikləri də təxirə salınıb.

Görünür, Azərbaycan hüquq-mühafizə və xüsusi xidmət orqanlarında elə informasiyalar var ki, kütləvi tədbirlərin təxirə salınması vacib bilinib.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016




# İsrail-Amerika böhranı, yoxsa Tramp-Obama anlaşması?

## ABŞ-ın yeni prezidentinin "qara siyahı"sına düşən BMT ləğv oluna bilər; **politoloq:** "İsrail əleyhinə qətnamə ləğv olunmasa, ABŞ BMT-nin maliyyələşməsini ixtisar edə, hətta dayandıra bilər"

**Ötən həftə BMT Təhlükəsizlik Şurasının İsraildən Fələstin ərazilərində yaşayış məskənlərinin inşasına son qoymağı tələb edən qətnamə qəbul etməsi Tel-Əviv-Vaşinqton münasibətlərində böhranın yaranmasına səbəb olub.**

Obama administrasiyası dövründə bir neçə dəfə yaxın müttəfiqlər arasında soyuq küləklər əsib. Ancaq budəfəki situasiyada Netanyahu hökuməti daha sərt davranış sərgiləyir. Xüsusilə də ABŞ-da yeni administrasiyanın yarandığı, Obamanın və komandasının yola salınması ərəfəsində belə bir gərginliyin yaranması ala-və ehtimallara yol açır. Bəzi müşahidəçilər bu gərginliyin ABŞ-da məqsədli şəkildə yaradıldığını güman edirlər. Yeni B.Obamanı əvəz edəcək yeni prezident Donald Tramp təqribən 20 gün sonra Ağ Evdə əyləşir və İsraillə münasibətlərdə "səhvlərə" yol vermiş sələfindən fərqli kurs yürüdərək həm yəhudi lobbisinin sevimlisinə çevrilir, həm də münasibətlərdə yeni səhifə açır. Trampın twitter hesabında İsrailə isti mesajlar yazması, həmçinin BMT-ni tənqid etməsi də diqqət çəkir.

"BMT artıq problemləri həll etmir, o, yeni problemlər yaradır". Bunu isə o, jurnalistlərə açıqlamasında söyləyib. (axar.az) "BMT-nin mükəmməl potensialı var, amma o, bundan yararlana bilmir. Siz BMT-nin problem həll etdiyini görmüsünüzmü? O, həll etmir, vəziyyəti daha da gərginləşdirir. Əgər BMT potensialını tam ortaya qoymasa, bu təşkilat hədər yerə yalnız pul və zaman xərcləməsi olacaq", - Tramp bildirib.

**Politoloq Şahin Cəfərli yaranmış situasiyanı "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, Azərbaycanda ABŞ-İsrail münasibətləri barədə yanlış təsəvvürlər var:** "Çoxları inanır ki, ABŞ-ı yəhudilər idarə edir, İsrail Amerikanın Yaxın Şərqdəki filialıdır, bunlar əslində az qala vahid dövlətdir və s. Əslində isə belə deyil. Düzdür, ABŞ İsrailin əsas himayəçilərindəndir, İsrailin təhlükəsizliyinin təmin olunması ABŞ-ın Yaxın Şərq siyasətinin başlıca istiqamətlərindən biridir, ABŞ büdcəsindən hər il İsrailə azı 3 milyard dollar yardım ayrılır, ABŞ beynəlxalq təşkilatlarda İsraili müdafiə edir. Bunlar hamısı həqiqətdir. Lakin iki ölkə münasibətlərinin tarixçəsinə nəzər salanda bu münasibətlərin heç də hamar olmadığı görünür. Dəfələrlə tərəflər arasında narazılıq, hətta böhran yaranıb". **Siyasi təhlilçi xatırlatdı ki, əsas narazılıq yaradan məsələ ABŞ-ın İsrail-Fələstin probleminin həllində iki dövlətli çözüm yolunu dəstəkləməsidir:** "Bu doktrinaya həm respublikaçı, həm demokrat prezidentlər ümumən sadiq qalıblar və bu yanaşma ABŞ-ın rəsmi dövlət siyasətinə çevrilib. Digər problem şərqi Qüds (Yerusəlim-red.) məsələsidir. ABŞ İsrailin bu ərazini özünə birləşdirmək siyasətini qəbul etmir. 1995-ci ildə Konqres Yerusəlimin İsrailin paytaxtı kimi tanınması haqqında qanun qəbul edib, lakin bu qanun administrasiyalar tərəfindən heç vaxt icra olunmayıb. Fikir ayrılığına səbəb olan növbəti məsələ isə işğal olunmuş ərazilərdə İsrailin məskunlaşma aparmasıdır. ABŞ hökumətləri ötən dövrlərdə bu siyasətin də əleyhinə çıxıblar. Eyni zamanda Vaşinqtonun müxtəlif dövrlərdə irəli sürdüyü sülh planlarının İsrail tərəfindən müsbət qarşılanmadığını da qeyd etmək lazımdır. Yəni, ötən müddətdə İsrail-Fələstin probleminin həlli məsələsində ABŞ və İsrailin mövqeləri çox vaxt üst-üstə düşməyib".

**Ş.Cəfərli qeyd etdi ki, ABŞ müsəlman dünyası ilə münasibətlərini də nəzərə alaraq ehtiyatlı siyasət yeridir, bu isə çox vaxt İsraili qane etmir:** "ABŞ indiyə qədər müstəqil Fələstin dövlətinin yaradılmasını dəstəkləyib, bunun əsas səbəblərindən biri budur ki, Fələstin məsələsi radikal islamı və bu zəmindəki terrorizmi bəsləyən əsas səbəblərdən biridir. Müstəqil Fələstinin yaradılması radikal islamçı meyllərin zəifləməsinə və terrorizmin sosial bazasının daralmasına gətirib çıxara bilər. Son illər isə ABŞ və İsrail arasında narazılıqların bariz şəkildə artması müşahidə olunur, hətta Obama ilə Netanyahu arasında şəxsi münasibətlər də korlanıb. Bunun səbəbi liberalyönümlü Obamanın iki dövlətli çözümdə israr etməsi və qanunsuz məskunlaşmaların aparılmasına qarşı siyasəti ilə əlaqədardır. Bu mövqe BMT-də son qətnamənin qəbulu zamanı da özünü göstərdi və ABŞ veto hüququndan istifadə etmədi, nəticədə Obama hökuməti İsrailin çox sərt ittihamlarına məruz qaldı". **Lakin politoloqa görə, böyük ehtimallar var ki, Donald Tramp səlahiyyətlərinin icrasına başladıqdan sonra ABŞ-ın ənənəvi siyasəti dəyişəcək:** "Trampın bəyanatları və konkret addımları bunu deməyə əsas verir. Məsələn, o, ABŞ-ın İsraildəki səfiri vəzifəsinə öz dostu, vəkil David Fridmanın namizədliyini irəli sürəcəyini açıqlayıb. Fridman ultrasağ baxışları və İsrail-Fələstin məsələsində radikal mövqeyi ilə tanınır. O, müstəqil Fələstin dövlətinin yaradılmasına qarşıdır və işğal altındakı torpaqlarda yəhudi məskunlaşmasının aparılmasının tərəfdarıdır. Fridman ABŞ səfirliyinin Tel-Avivdən Yerusəlimə köçürülməsini də dəstəkləyir. Əgər onun baxışları ABŞ-ın dövlət siyasətinə çevrilərsə, onda Yaxın Şərqdə gərginlik daha da artacaq. Bu siyasət terrorizmin yeni vüsət almasına da səbəb ola bilər. Təsadüfi deyil ki, ABŞ-dakı liberal-sol yönümlü yəhudilər də Fridmanın namizədliyinə etiraz edir. Ümumiyyətlə, onu qeyd edim ki, ABŞ yəhudiləri arasında Fələstin məsələsinə və İsrailin siyasətinə birmənalı münasibət yoxdur, lakin bu, başqa söhbəti mövzusudur. Trampın siyasətindən yəqin ki, BMT də öz nəsibini alacaq. İsrail əleyhinə qətnamə ləğv olunmasa, ABŞ BMT-nin maliyyələşməsini ixtisar edə, hətta dayandıra bilər. Əgər bu baş versə, BMT-də ciddi maliyyə böhranı yaranacaq və təşkilatın öz fəaliyyətini məhdudlaşdırmağa məcbur olacaq".

Bu arada Trampın Obama ilə telefonda söhbətləşdiyi və söhbətin "çox yaxşı" keçdiyi xəbəri də yayılıb. Hansı ki, bundan bir qədər öncə o, twitterdə prezident Obamanı hakimiyyətə keçid prosesinə əngəllər törətməkdə günahlandırmışdı. Ağ Evin yaydığı açıqlamada isə bildirilir ki, siyasətçilər növbəti bir neçə həftə ərzində mütəmadi olaraq əlaqə saxlamaq, yanvarın 20-dək komandaları arasında əməkdaşlığı davam etdirmək barədə razılığa gəliblər. Söhbət "çox yaxşı keçib"sə, deməli, İsraillə bağlı da hansısa anlaşma olmamış deyil.

❑ **E.PAŞASOY**

# Suriyada Dağlıq Qarabağ məşqi

## Ekspertlərə görə, Türkiyə və Rusiyanın Suriya mövzusunda razılığa gəlməsi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı anlaşmanı da mümkün edir

**Rusiya və Türkiyə hökumətləri arasında Suriya münaqişəsinin həlli ilə bağlı anlaşma əldə olunub. Dekabrın 23-də Ankarada ekspertlər səviyyəsində başlayan müzakirələrin nəticəsi olaraq iki ölkənin XİN rəhbərləri arasında razılaşma əldə olunub. Anlaşma bir neçə əsas bənddən ibarətdir və Astanada gələn ay baş tutacaq əsas danışıqların bazası hesab olunur.**

Ankara və Moskva arasında əldə olunmuş razılaşmaya əsasən, Suriyada atəşkəs Hələbdən başlayaraq ölkənin bütün bölgələrinə tətbiq olunur. Yalnız "ən-Nusra" (Şamın Fəth Cəbhəsi) və İŞİD atəşkəsə daxil deyil, bu terror təşkilatlarına qarşı mübarizə davam edəcək. Türkiyə və Rusiya Suriyada atəşkəsin təminatçısı olacaq.

Qeyd edək ki, artıq Qərb mediası da bu hadisəni Suriyada münaqişənin həlli istiqamətində ciddi irəliləyiş adlandırır. Çünki məlum olduğu kimi, hazırda Suriyada əsas oyunçular Türkiyə, Rusiya və İrandır. Rusiya və İran hökuməti, Türkiyə isə müxalif qrupları dəstəkləyir.

Suriya ilə bağlı Rusiya-Türkiyə anlaşması həm də mühüm əhəmiyyət daşıyan siyasi hadisədir. Çünki uzun illərdən sonra regionun ən güclü və əks qütblərində olan dövləti arasında hərbi-siyasi münaqişənin həlli istiqamətində anlaşma əldə olunub. Heç şübhəsiz ki, bu vəziyyətdə yada düşən iki dövlət arasında yaxınlaşmanın digər sahələrə də təsiridir. Məsələ ondadır ki, Rusiya və Türkiyə arasında münasibətlər daha əvvəl, xüsusən də sovetlərdən sonra da normal olsa da, bu cür ciddi bir münaqişənin həllində ortaq mövqeyə gəlməmişdilər. Suriya anlaşması bu mənada Moskva-Ankara münasibətlərində yeni səhifədir.

Əcəba bu danışıqlar və yaxınlaşma Cənubi Qafqaza, xüsusən də Ermənistan-Azərbaycan münaqişəsinə də təsir edə bilərmi? Nəzəri baxımdan Suriyada əldə olunmuş anlaşma təcrübəsi növbəti mərhələdə Moskva və Ankaranı Qarabağ münaqişəsinin həlli ilə bağlı bir masa arxasına gətirə bilər. Çünki Ankara siyasi baxımdan Qarabağ münaqişəsinə heç də Suriya münaqişəsindən az diqqət etmir. Üstəlik, Ermənistan-Azərbaycan arasında hazırda gərgin vəziyyət var və hər an savaş başlaya bilər.

Nəzəri baxımdan Suriya anlaşmasından sonra Rusiya və Türkiyə diplomatlarının Qarabağ münaqişəsi üçün masa arxasına keçməsinə üçün heç bir manea yoxdur.

**Siyasi analitik Elxan Şahinoğlu deyir ki, nəzəri olaraq indi bu mümkündür. Onun fikrincə, Ankara və Moskvanın Suriyada atəşkəslə bağlı anlaşması artıq müsbət nümunədir:** "Əslində Suriya məsələsindən əvvəl də Rusiya və Türkiyə arasında yaxınlaşma var idi. Daha sonra bu əlaqələr pozuldu. Lakin Türkiyə Rusiyadan üzr istədikdən sonra yenidən yaxınlaşma oldu. Moskva və Ankara yalnız Suriya məsələsində anlaşa bilmirdilər. Amma zamanla bu da oldu. Hələbin boşaldılmasında bunu gördük. Rusiya hökumət, Türkiyə isə müxaliflər tərəfindən bu məsələni yoluna qoydular. Daha çox itki olmadan Hələb boşaldıldı. Hətta Lavrov dedi ki, Vaşinqtondansa Ankara ilə anlaşma daha rahatdır. Bbildiyimiz kimi, Suriya mövzusunda Vaşinqtonla Moskva arasında uzun müddət davam edən Cenevrə müzakirələri nəticəsiz bitdi. Digər tərəfdən, indi Ankara ilə Qərb arasında münasibətlər soyuqdur, ilk dəfə prezident Ərdoğan İŞİD-in Amerikanı dəstəkləməsi haqda ən yüksək səviyyədə bəyan etdi. Bu onu göstərir ki, Ankara indi Moskva ilə daha yaxşı anlaşır".

E.Şahinoğlunun fikrincə, Suriya anlaşması möhkəm olsa və uğurla davam etdirilsə, növbəti mərhələdə Dağlıq Qarabağ münaqişəsi müzakirə masasına gətirilə bilər: "Türkiyə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox fəaldır. İndi əsas məsələ Suriya olsa da, Dağlıq Qarabağ məsələsini Türkiyə tərəfi bütün beynəlxalq toplantılarda qaldırır.



Yeri gəlmişkən, artıq Rusiya rəsmiləri də Türkiyənin Qarabağ münaqişəsinin həllində iştirakının mümkünlüyünə işarə ediblər".

**Ekspert deyir ki, artıq bu istiqamətdə ilk addım, yəni təcrübə var. Rusiya və Türkiyə Suriyada atəşkəsin təminatçısı kimi çıxış edir. Qarabağ münaqişəsində də belə ola bilər, Rusiya və Türkiyə atəşkəsi təmin edə və münaqişə tərəfinin nümayəndəsi kimi çıxış edə bilər. Bunun üçün ilk növbədə Suriyada anlaşmanın uğurlu olması vacibdir:** "Əgər Suriyada atəşkəs və danışıqlar uğurlu olacaqsa, növbəti mərhələdə Qarabağ məsələsi gündəmə gələ bilər. Digər tərəfdən, hardan baxsan münaqişənin nizamlanması Rusiyanın da xeyrinə olacaq. Çünki Rusiya artıq Türkiyə ilə dostlaşır, Azərbaycanla da yaxındır. Münaqişənin qalması bu vəziyyətdə Rusiyanın maraqlarına uyğun deyil.

Yeganə məsələ Rusiya hakimiyyətinin ortaya iradə qoyub çalışmasıdır. Amma gözləmək lazımdır, görək Suriya anlaşması necə olacaq".

**Ankarada yerləşən "Kafkassam" Starteji Araşdırmalar Mərkəzinin rəhbəri Hasan Oktay da bu variantı nəzəri baxımdan mümkün sayır. Ekspert deyir ki, Türkiyə və Rusiyanın Suriya mövzusunda anlaşması müsbət bir təcrübədir, hər iki ölkə birlikdə qlobal bir münaqişənin həllində mühüm addımdır. Sırada Qarabağ münaqişəsinin olması realdır:** "Türkiyə və Rusiya Suriyada münaqişənin həlli istiqamətində mühüm bir anlaşma əldə etdilər. Bunun bir sonrakı mərhələsi Dağlıq Qarabağ münaqişəsinin həlli danışıqları ola bilər. Suriya təcrübəsi göstərdi ki, iki ölkənin bunu etməyə gücü və imkanları var".

❑ **Kənan RÖVŞƏNOĞLU**

**Ötən ildən başlayaraq dünya bazarında neftin qiymətinin ucuzlaşması Azərbaycanda da əhalinin vəziyyətinə təsirsiz qalmadı. Ölkəmizin əldə etdiyi gəlirlərin azalması fonunda bütün sahələrdə problemlər artmağa başladı. Bəzi müəssisələrin gəlir əldə etmək imkanlarının azalması səbəbindən bağlanması fonunda yüzlərlə insan iş yerlərini itirdi. Manatın dollar qarşısında ucuzlaşmaqda davam etməsi və ölkədə son vaxtlar bankların faktiki olaraq dollar satışını dayandırması isə sahibkarları-iş adamlarını çətin vəziyyətə salıb.**

# Sahibkardan çağırış: "Məmurlar biznesdən çəkilsin..."

## Fərhad Həsənov: "Məmurların müdaxiləsi aradan qaldırıldıqdan sonra sahibkarlığın real inkişafından danışmaq olar"

Amma əksər ekspertlər indiki vəziyyətin qarşısının alınmasının mümkün olacağını da bildirirlər.

**Sahibkar Fərhad Həsənov** da yaranmış vəziyyətin sahibkarlığı zəiflətməkdə olduğundan şikayətlənir. O, "Yeni Müsavat"a bildirib ki, düzgün iqtisadi islahatlar aparılsa, problemin qarşısını almaq olardı: "Ölkənin neft sektorundan əldə etdiyi gəlirlər son 7-8 ildə mənimsənildi. Neft gəlirləri hesabına iqtisadiyyatı şaxələndirmək əvəzinə ölkəyə daxil olan böyük pullar istifadəsiz qalan binaların, diaqnostka mərkəzlərinin, eyni yolun ildə bir neçə dəfə təmirinə, binaların üzlənməsinə yönəldildi. Bütün bunlar isə valyutanın leqal və qeyri-leqal yollarla xaricə daşınması demək idi. Dağıdılan həmin milyardlar və itirdiyimiz zamanın nəticəsində iqtisadiyyatımız indiki ağır duruma düşüb. Ölkə iqtisadiyyatının yalnız bir sahədən asılılığı ona gətirib çıxardı ki, neftin qiymətinin ucuzlaşmasının ardınca Azərbaycan manatı da iki dəfədən artıq dəyər itirdi. Son vaxtlar isə dollar tapmaq ümumiyyətlə müşkülə dönüb. Sahibkarlığa bu vəziyyət çox ciddi zərbə vurmaqdadır. Manatın dəyər itirməsinin də dayandığını düşünmürəm. Hazırda ölkənin mövcud iqtisadi potensialını, maliyyə vəziyyətini, idxal-ixrac əməliyyatlarını, valyuta axınını təhlil etdikdə manatın bugünkü məzənnəsinin də reallığı əks etdirmədiyi aydın görünür".


Fərhad Həsənov

**Fərhad Həsənovun sözlərinə görə, bankların bir-birinin ardınca bağlanması, kiçik və orta sahibkarlara kredit verilməsinin dayandırılması da sahibkarları çətin duruma salıb:** "Belə ki, devalvasiyadan sonra biznes subyektlərinin borclarının artması onların bir çoxunun fəaliyyətini dayandırmasına gətirib çıxarır. Kreditləşmənin dayanması isə biznes mühitinin pisləşməsinə səbəb olmaqla yanaşı, yeni müəssisələrin, təsərrüfatların, iş yerlərinin açılmasını əngəlləyir. Hazırda xaricdən ölkəyə məhsul gətirənlərin də gəlirləri kəskin azalıb. Çünki onlar ölkəyə gətirdikləri malları xarici valyuta ilə aldıqlarına görə ödənişi də dollarla edirlər. Amma manatın az qala hər gün dəyər itirməsinə görə bu gün alınan mal sabah üstümüzə daha baha qiymətə oturur. Bundan sonra gətirdiyimiz malı baha qiymətə satdıqda alıcı problemi ilə qarşılaşırıq. Qiyməti bir qədər sabit saxladıqda isə ziyanla işləməyə məcburuq. Bununla da manat dəyər itirdikcə sahibkarların da vəziyyətin düzələcəyinə inamı itir. Bahalaşma fonunda insanların aldıqları əmək haqqının da hər ay dəyər itirməsi onların iqtisadi durumunu ağırlaşdırır. Əhalinin yaşayış şəraitinin ağırlaşması, alıcılıq qabiliyyətinin pisləşməsi isə həm də sahibkarların işini daha da zəiflədir. Bu mənada problemdən çıxış yolu ilk öncə milli valyutaya inamın bərpa edilməsindən asılıdır".

**Fərhad Həsənovun qənaətinə görə, böhran vəziyyətindən çıxmaq üçün ölkədə ciddi islahatlar aparılmalıdır:** "Kiçik və orta sahibkarlığın inkişafına üstünlük və dəstək verilməli, sahibkarlara maliyyə resursları əldə etmək imkanları yaradılmalıdır. Həmçinin vergi və digər məcburi ödənişlərin faizi azaldılmalıdır. Əksər iqtisadçılar Gürcüstan təcrübəsindən çıxış edib vergi və sosial sığorta üzrə məcburi ödənişlərin birləşdirilməsini və aşağı salınmasının mümkünlüyünü təklif edir. Əgər bu addım atılarsa, 39 faiz yox, 20 faiz vergi və sosial ödənişlər edilə bilər. Həmçinin indiki halda dövlət kredit faizlərinin dərəcələrini aşağı salmaqla kommersiya banklarına ucuz və uzunmüddətli vəsait yönəldə bilər. Çıxış yollarından biri isə odur ki, məmurların biznes və sahibkarlıqla məşğul olması real olaraq əngəllənməli, sahibkarlıqla məşğul olmaq imkanı sahibkarlara verilməlidir. Onlara güzəştlər tətbiq olunmalıdır ki, ilk növbədə daxili bazarı təmin edə bilsinlər. Çünki yerli bazarda rəqabət artdıqca daha keyfiyyətli məhsul istehsal edilə və ixrac imkanları yarana bilər. Başqa sözlə, inhisarçılıq, korrupsiya, məmur müdaxiləsi qaldıqca, vergi islahatları aparılmadıqca və sahibkarlıq subyektlərinə aşağı faizlə kredit əldə etmək imkanı yaradılmadıqca bu sektorun inkişafı mümkünsüz olacaq. Yalnız inhisarçılıq, məmurların sahibkarlığa müdaxiləsi aradan qaldırıldıqdan sonra sahibkarlığın real inkişafından danışmaq olar. Əks halda, hazırda güclə də olsa ayaq üstə durmağı bacaran, fəaliyyətini davam etdirməkdə israrlı olan sahibkarlıq subyektləri qısa müddət sonra bağlanacaq".

❑ **E.SEYİDAĞA**

# "Ya kəskin devalvasiya, ya "qara bazar"a davam"...



## Ekspertlər gələn il manatın və hökumətin qərarının necə olacağını açıqlayırlar

**Dekabrın 29-da Azərbaycan Mərkəzi Bankında (AMB) Dövlət Neft Fondunun da iştirak etdiyi növbəti və 2016-cı il üçün sonuncu ikitərəfli valyuta hərracı keçirilib. Hərrac 1 dollar üçün 1,7662 məzənnəsi ilə başlayıb və 1,7707 məzənnəsi ilə yekunlaşıb. "Qara bazar"da isə 1 dollar artıq 1,94 manata qalxıb. Ekspertlər gələn ilin əvvəlində manatın özünü necə aparacağından narahatdırlar. Əksər proqnozlar mənfidir.**

Bildirilir ki, manat 2017-ci il başlayan kimi kəskin şəkildə ucuzlaşa bilər. Həmçinin 2016-cı ildə manatın nisbətən sabit saxlanma cəhdlərinin uğursuz olması gələn illə bağlı da neqativ proqnozlar yaradır. Bildirilir ki, 2017-ci ildə kəskin devalvasiyanın olması ehtimalı daha çoxdur. Bu il ərzində isə manat kəskin devalvasiyaya uğramasa da, ciddi şəkildə dəyər itirib. Ekspertlər bildirirlər ki, gələn il manatın durumu ölkə iqtisadiyyatını və bank sistemini çoxsaylı problemlər qarşısında qoyacaq.

**Ekspert Qubad İbadoğlu məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, gələn ilin əvvəlində, yeni il başlayan kimi manat tam sərbəst buraxılmayacaq:** "Düşünmürəm ki, Azərbaycan hökuməti buna hazırdır və qərar verəcək. Çünki Yol xəritəsində də qeyd olunub ki, 2017-ci il ərzində manat tam üzən məzənnəyə keçəcək. Ona görə mənim bir gözləntim yoxdur ki, yanvarın 1-dən Azərbaycan vətəndaşları üçün sürpriz yaransın. Düşünürəm ki, keçid gələn ilin birinci rübündəki iqtisadi vəziyyətdən asılı olacaq. Həm xarici ticarətin saldosu əhəmiyyətli rol oynaya bilər. Həm də belə qərarın qəbulunda dövlət büdcəsinə vergi yığımları böyük rol oynaya bilər. Hər iki məsələdə əgər hökumət qarşısına qoyduğu vəzifələrə nail ola bilərsə, düşünürəm ki, ondan sonra müvafiq qərar qəbul edilməsinə razılıq verə bilər. Çünki bu, siyasi qərardır. İqtisadi proseslərdə əhəmiyyətli rol oynasa da, siyasi qərardır. Amma bu qərarın qəbulunda siyasi mövqe, eyni zamanda siyasi iradə əhəmiyyətli rol oynayır. Gözləntilərim ondan ibarətdir ki, yumşaq devalvasiya gələn ilin əvvəlində də davam edə bilər. Amma əgər hökumət tam üzən məzənnəyə keçiddə israrlı olarsa, dediyim səbəblərdən iqtisadiyyatda da pozitiv nəticələr əldə edə bilərsə, həm xarici ticarətdə, xüsusən ixracatda artım gəlişmə qeydə alınarsa, dövlət büdcəsinin mədaxil hissəsinin təminatı sahəsində proqnozlara tam əməl olunarsa, ola bilər, bu dövr həm də hazırlıq dövrü olsun. Söhbət gələn ilin birinci rübündən gedir. Həmin o hazırlıq dövründə hesablamalar göstərsə ki, tam üzən məzənnədə tarazlaşacaq kursla təyin olunan məzənnə arasında fərq yaranır, hökumət ola bilsin həm də kəskin devalvasiyaya getsin. Bu, üçüncü devalvasiya olacaq. Kəskin devalvasiya ona görə lazım olacaq ki, hökumət kəskin devalvasiya tam üzən məzənnəyə keçid kursu ilə tam üzən məzənnənin tarazlaşdırılmış kursu arasındakı fərqi azaltsın. Tutaq ki, 1,77-dən tam üzən məzənnəyə keçid qərarı verilir və real məzənnə arasında kəskin fərq yaransın. Bir də var ki, hökumət yenə devalvasiyaya getsin və bunun nəticəsində tam üzən məzənnənin tarazlaşacağı kursla cari kurs arasındakı fərqi azaldır. Bu iki ssenaridən biri ola bilər".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016

# ABŞ Cənubi Qafqazı Rusiyaya təhvil verir-iddia

**ABŞ-ın son illərdə Cənubi Qafqazda üstünlüyünü xeyli dərəcədə itirdiyi, Rusiyanın isə təsir imkanlarını artırdığı müşahidə edilir. Bir sıra siyasi ekspertlərin fikrincə, bu proses yanvarın 21-də Donald Tramp ABŞ prezidenti kimi vəzifəsinin icrasına başladıqdan sonra daha da sürətlənəcək, ABŞ Cənubi Qafqazı tamamilə Rusiyanın nəzarətinə buraxacaq.**

## "Rusiya ətrafında qurulan çəmbər Cənubi Qafqazla davam edərək, Orta Asiya respublikaları boyunca uzanmaqla Qırğızıstanda başa çatmalıdır"


Qabil Hüseynli

**Politoloq Qabil Hüseynli** hesab edir ki, Trampın vəzifəsinin icrasına başlamasından sonra Cənubi Qafqazın Rusiyaya buraxılacağı gözlənilmir. Çünki ABŞ-ın təhlükəsizlik konsepsiyası var. Bu konsepsiyada ABŞ və onun müttəfiqləri üçün bir nömrəli təhlükənin Rusiyadan gəldiyi bəyan edilir. Ona görə də bu konsepsiyanın tələblərinə uyğun olaraq, Rusiyanın ətrafında ABŞ başda olmaqla, NATO bir böyük təhlükəsizlik çəmbəri qurmağa çalışır: "Bu təhlükəsizlik çəmbəri artıq Skandinaviya respublikalarından tutmuş Baltikyanı respublikalardan keçərək Polşa, Macarıstan və Bolqarıstana qədər uzanır. Yeni Baltik dənizindən Qara dənizə qədər artıq həm raketdən müdafiə sistemləri ilə, həm müxtəlif qoşun növlərinin, eləcə də quru qoşunlarının yerləşdirilməsi ilə bu çəmbərin qurulması başa çatıb. Amerikanın konsepsiyasının məğzində Rusiyanı tam həlqəyə alan, Rusiyanı bütün sərhədi boyu mühasirəyə alacaq təhlükəsizlik çəmbərinin tam şəkildə qurulması dayanır. Bu çəmbərin ən önəmli hissələrindən birini də Cənubi Qafqaz bölgəsi əhatə edəcək. Donald Trampın müəyyən deyimləri, fikirləri ABŞ-ın dövlət maraqlarını əks etdirə, üstələyə bilməz".

**Politoloq dedi ki, "Dərin dövlət" Trampı müəyyən davranış qaydalarına dəvət edəcək. Əgər Tramp bu dəvətə uyğunlaşacaqsa və dövlətin müxtəlif qurumlarının təlqinlərinə müəyyən əhəmiyyət verəcəksə, uyacaqsa iş başında qala biləcək:** "Trampın siyasi naşılıqdan doğan bəyanatlarına Amerikanın mühüm qurumları uzun müddət dözməyəcək. Məncə, Tramp öz manerasını və davranış normalarını dəyişməyə çalışacaq, buna nail ola biləcək. Amma nail olmadıqda ortada impiçment məsələsi durur. Amerikanın müvafiq orqanları impiçment prosedurunu işə salmaqla ABŞ-ın köklü maraqlarına uyğun gəlməyən və ya naşı siyasət yeritməyə çalışan insanı siyasi hakimiyyətdən uzaqlaşdırmağa çalışacaq.

Amerika bu saat Rusiyanı beynəlxalq terrorizmdən də təhlükəli hesab edir. Əgər tutaq ki, Barak Obamanın hakimiyyətinin ilk dövrlərində, Klintonun hakimiyyətinin son dövrlərində Amerika üçün ən təhlükəli məqam beynəlxalq terrorizmdirsə, indi ABŞ və NATO üçün ən təhlükəli məqam Rusiya amili hesab edilir. Rusiyanın yavaş-yavaş artan gücü fövqəldövlətə çevrilmək iddialarıdır ki, bu da ABŞ-ın və onun müttəfiqlərinin prinsipial konseptual maraqlarına qətiyyən uyğun gələ bilməz.

ABŞ-ın konseptual planına görə, Rusiya ətrafında qurulan çəmbər Cənubi Qafqazla davam edəcək və Orta Asiya respublikaları boyunca uzanmaqla Qırğızıstanda başa çatmalıdır. Əgər bu plan reallaşdırılmayacaqsa, Ağ Ev tərəfindən Rusiyaya hansısa bir sahədə güzəştlərə gediləcəksə, Pentaqon, Dövlət Departamenti, Senat, Konqres və digər mühüm orqanlar sözügedən planın həyata keçməsinə cəhd edəcəklər və buna nail olacaqlar".

**Q.Hüseynlinin sözlərinə, Suriyadakı müvəqqəti pauzaya görə Rusiya elə sanmamalıdır ki, Yaxın Şərqdə hər şey başa çatıb. Yaxın Şərq ABŞ-ın, İsrailin və Avropa dövlətlərinin həyati maraqlarına daxil olan əsas bölgədir:** "Bu bölgə uzun müddət ABŞ-ın təsir dairəsinə daxil olub. ABŞ heç zaman belə asanlıqla təsir dairəsinə daxil olan bölgəni Rusiya və İranın nəzarətinə verməyəcək. Həmçinin ABŞ onun üçün mühüm əhəmiyyət kəsb edən Cənubi Qafqazı da Rusiyaya buraxmayacaq. ABŞ Rusiyanın dünyanın bütün nöqtələrində, bütün istiqamətlərdə təqibini davam etdirəcək. ABŞ-ın siyasətində Tramp kimi adamlar çox gəlib gedib. Amma Amerikanın köklü maraqları var və onu dünyanın bir nömrəli dövlətinə çevirən həmin köklü maraqlarıdır. O köklü maraqlardan kim kənara çıxıbsa, mərkəzdənqaçma qüvvəsi kimi həmin adamlar uzaqlaşdırılıb. ABŞ-ın bu siyasətini dəyişməyə heç kimin gücü çatmayacaq".

❑ Etibar SEYİDAĞA

# Ermənistanda "seçki oyunu", yoxsa sülh istəyi?

## İşğalçı ölkənin eks-prezidentinin Qarabağ çağırışına Serj Sərkisyandan reaksiya verildi; azərbaycanlı politoloq baş verənlərin ssenariləşdirildiyini deyir

**Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın hakimiyyəti Qarabağ məsələsi ilə bağlı addımlar atmağa çağırması işğalçı ölkədə geniş müzakirələrə səbəb olub.**


Arzu Nağıyev

Qeyd edək ki, sabiq prezident danışıqlar masası üzərində olan sənədin 1997-ci ildə müzakirə edilən mərhələli həll planının eynisinin olduğunu deyib və xəbərdarlıq edib ki, İrəvan vəziyyəti düzgün dəyərləndirib razılaşmaya getməsə, həm Ermənistanın, həm də Qarabağdakı ermənilərin vəziyyəti getdikcə pisləşəcək. Ancaq Ter-Petrosyanın Qarabağa dair sülh razılaşmasına çağıran çıxışına Ermənistanın hakimiyyət dairələri və ekspertləri tənqidi reaksiya veriblər, belə çağırışların "Azərbaycanın maraqlarına xidmət etdiyini" deyiblər. Bunun ardınca Ter-Petrosyan onun nitqi ətrafındakı polemikaya məqalə ilə cavab verərək bildirib ki, əslində yeni heç nə deməyib və Ermənistan hakimiyyətinin danışıqlarda müzakirə etdiyi, prinsipcə razılaşdığı nizamlama variantı haqda danışıb. Hansı ki, bu variant ilkin mərhələdə 5 rayonunun Azərbaycana qaytarılmasını, Dağlıq Qarabağ üçün aralıq statusun müəyyən edilməsini nəzərdə tutur.

**Eks-prezidentin Qarabağ münaqişənin həlli ilə bağlı təkliflərinə, nəhayət, ölkə prezidenti Serj Sərkisyan da reaksiya verib. (virtualaz.org) O, XİN-də ənənəvi yeni il qəbulu zamanı üstüörtülü şəkildə Ter-Petrosyanın dediklərinə reaksiya verib. Sərkisyanın sözlərinə görə, ekspertlər, siyasi xadimlər və ya özlərini belə hesab edənlər periodik olaraq dövriyyəyə Qarabağ münaqişəsinin nizamlanmasına dair variantları buraxırlar. Lakin həqiqətdə bunların heç biri variant deyil, versiyalardır.**

"Mən çox aydın şəkildə bildirirəm ki, indiyə qədər heç kim bizim danışıqlarda uzun müddətdir müzakirə etdiyimiz variantı təfərrüatları ilə açıqlamağa nail olmayıb. Bu da başa düşüləndir və qəbulediləndir, ancaq təfərrüatlara varmaq istəyəndə dərhal mahiyyətdən yayınırlar və arzular haqda danışmağa başlayırlar"-Serj Sərkisyan deyib.

Erməni dövlət başçısı deyir ki, 2007-ci ildən bəri danışıqlarda Madrid prinsiplərindən başqa heç bir nizamlama variantı müzakirə olunmayıb. Onun sözlərinə görə, ən azı iki səbəb var ki, ictimaiyyət danışıqların detalları barədə məlumatlandırılmır. Bunlardan biri odur ki, əgər hər şey razılaşdırılmayıbsa, deməli, heç nə razılaşdırılmayıb. "Erməni tərəfinin danışıqlarda bir məqsədi var-Dağlıq Qarabağ üçün statusun müəyyən olunması. Biz bu mövqedən geri çəkilən deyilik"-Sərkisyan bildirib.

Qeyd edək ki, sabiq müdafiə naziri, Xocalı qatili Seyran Ohanyan da bugünlərdə "sülhməramlı" mövqedən çıxış edib. 2017-ci ilin aprelində ölkədə keçiriləcək parlament seçkilərinə keçmiş prezident Robert Köçəryanla bir blokda gedən Ohanyan bir neçə ay əvvəlki davranışlarının tam əksinə çıxış edir. Xatırlayırsınızsa, aprel döyüşlərindən sonra hərbi texnika, canlı qüvvə və strateji mövqelərin itirilməsinə görə Sərkisyan üçün arzuolunmaz şəxsə çevrilən S.Ohanyan o zaman Qarabağa "könüllülər", əslində isə cani erməni saqqallılarını gətirmişdi. Əlavə qüvvələr cəlb etməklə sabiq nazir Azərbaycandan intiqam almağı planlaşdırırdı. O zaman qatı müharibə tərəfdarı olan Ohanyanın hərbi mundirini soyunandan sonra "sülh carçısı" kimi görünməsi təbii ki, şübhələr yaradır. Düzdür, Ter-Petrosyan Azərbaycan ərazilərinin işğalı və Xocalı soyqırımının törədilməsi dövründə Ermənistana rəhbərlik edib. Odur ki, Qarabağdakı cinayətlərə görə ən birinci cavabdeh məhz odur. Lakin sonrakı illərdə o, vəziyyəti düzgün qiymətləndirərək güzəştlərə hazır olduğunu bildirdi və buna görə erməni diasporu tərəfindən cəzalandırıldı. İndi də Ermənistanın gələcəyini görə bilmədiyi üçün daha məqbul planın icrasına çağırır. Ancaq o da mümkündür ki, Ter-Petrosyan, həmçinin Ohanyan seçki oyununu oynayır. Keçmiş prezident hətta oğlunun mandat alması üçün çalışır və Ermənistan hakimiyyətinin səsini almaq üçün Qarabağ uğrunda itkilərə bais olan "Qarabağ klanı"nın rəhbəri S.Sərkisyan hökumətindən fərqli kursu təqdim edir.

**Politoloq Arzu Nağıyev də "Yeni Müsavat"a bildirdi ki, düşmən ölkədə Qarabağ məsələsi ilə bağlı müzakirələrin ön plana çıxmasının bir neçə səbəbi var:** "Məlumdur ki, gələn il Ermənistanda seçkilər ilidir və hər bir partiya funksioneri Dağlıq Qarabağ kartından istifadə etməyə çalışır. Bundan başqa, nəyin bahasına olursa-olsun "Qarabağ klanı" öz namizədlərini irəli verməklə hakimiyyəti əlində saxlamağa çalışır, əks təqdirdə, sonlarının çox acınacaqlı olmasını görürlər. Ter-Petrosyan isə Qərbin demokratik dəyərlərini pafosla çatdırmağa çalışır və bununla da siyasi arenada ya özünün, ya da yaxın adamlarının, o cümlədən oğlunun qalmasını istəyir. Məlumdur ki, ABŞ-ın yeni seçilmiş prezidenti cənab Trampın inauqurasiya mərasimindən sonra xarici siyasətdə müəyyən korrektələr edilə bilər, məhz buna görə də hər bir siyasi partiya və qurumlar bundan öz xeyrinə maksimum istifadə etməyə çalışır. Əsas istifadə ediləcək nüans da məhz Dağlıq Qarabağ münaqişəsi və təbii ki, onun sülh yolu ilə həll edilməsinin vacibliyidir".

A.Nağıyevin fikrincə, digər mühüm amil məhz Rusiya ilə əlaqədardır: "Kreml başa düşür ki, Ermənistanda "Qarabağ klanı"ndan olan iqtidara qarşı narazılıqlar həqiqətən də artıb və qərbyönümlü siyasi qurumların da aktivliyi durmadan artır. Yeni növbəti parlament seçkiləri yenə müxtəlif siyasi oyunçuların Dağlıq Qarabağ münaqişəsindən öz xeyirlərinə istifadə etməklə aparılacaq. Deməli, ən yaxşı yol kimi Rusiya Ermənistana təzyiq edərək sülhdən danışdırmağa çalışır. Bununla əlaqədar həm də "xalq diplomatiyası"nın vacibliyini vurğulayır. Bundan başqa, Rusiya istəmir ki, parlament seçkiləri ərəfəsində növbəti aprel hadisələri təkrarlansın. Deməli, bütün baş verən proseslər müəyyən razılaşdırılmış ssenari üzrə gedir və Dağlıq Qarabağ kartı da əsas meyardır".

❑ Cavid TURAN

**Türkiyədə 15 iyul qiyamı ilə bağlı həbslər davam edir. Son günlərdə həbs dalğası daha da genişlənib. 22 əyalətdə Fətullahçı Terror Təşkilatına (FETÖ) qarşı keçirilən əməliyyat nəticəsində daha 34 nəfər hərbçi həbs edilib. Əməliyyatın keçirilməsi üçün Ankara Şəhər Prokurorluğu sanksiya verib. İnformasiyaya əsasən, onların 4-ü zabit, 30-u isə gizirdir.**

# Türkiyədə FETÖ-çülərin həbsi davam edir - məşhur jurnalist də saxlanılıb

Çorum əyalətində isə şübhəli şəxs qismində dindirilən 17 nəfərdən 14-ü həbs edilib. İstanbul prokurorluğunda aparılan bir istintaq çərçivəsində isə dekabrın 29-da təhlükəsizlik şöbəsinin əməkdaşları məşhur qəzetçi Ahmet Şıkı saxlayıblar.

Jurnalistin zəruri sənədləşdirmə işlərindən sonra məhkəmə qarşısına çıxarılacağı bildirilir.

**Ahmet Şık saxlanıldığı barəsə twitter hesabında belə yazıb:** "Həbs edilirəm. Bir twitlə bağlı prokurorluğa aparılacaqmışam".

Qeyd edək ki, Ahmet Şık 3-4 il öncə də həbs olunub, bir il həbsdə qalıb. O zaman onun həbsinin səbəbi Fətullah Gülənə dair yazdığı, amma hələ nəşr edilməyən "İmamın ordusu" kitabına görə olmuşdu. Həmin işlə bağlı məhkəməsi gedən zaman A.Şık məhkəmə binası önünə toplaşan jurnalistlərə səslənmişdi: "Dostlar, ona toxunan yanır".

Bundan əlavə, Samsun, Antalya və digər böyük şəhərlərdə FETÖ tərəfdarlarından onlarla şəxs istintaqa cəlb olunub.

Göründüyü kimi, 15 iyul qiyamının üzərindən 5 aydan çox zaman ötsə də, proses səngimir və həbslər davam etməkdədir. Yaxın bir neçə ay ərzində də FETÖ tərəfdarlarının həbslərinin davam edəcəyi istisna olunmur. Ekspertlərin həbslərlə bağlı mövqeləri müxtəlifdir. Əksəriyyət başladılan işin tam başa çatdırılmasının qardaş ölkənin gələcəyi üçün çox mühüm olduğunu qeyd etsə də, bunun əksini deyənlər də var. Həbsin əleyhdarları Türkiyənin gələcəyi baxımından bunun mənfilərinin olacağından, ən əsası, türk ordusunun imicinə ciddi zərbə dəyəcəyindən ehtiyalanırlar.

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri, politoloq Əhəd Məmmədli hesab edir ki, Türkiyədə gedən proseslər normal qəbul olunmalıdır:** "Azərbaycan da vaxtilə hərbi qiyam yaşayan ölkə olub. Təəssüflər olsun ki, o zamankı iqtidar bunun qarşısını ala bilməyib. Hərbi qiyamda hərbçi də, jurnalist də, hakim də, müəllim də tutular. Günahı olan hər kəs kimliyindən asılı olmayaraq həbs oluna bilər. Türkiyədə baş verirsə, bu proses ölkənin miqyasına uyğun şəkildə gedəcək. Burada təəccüblü heç nə görmürəm. Türkiyədə yeni bir sistem qurulur. Türkiyə NATO-ya üzv qəbul edildikdən sonra orduda yeni bir sistem var idi. Amerikanın idarəçiliyi altında bir sistem mövcud idi. Ərdoğan iqtidarından öncə Türkiyə ordusu tam şəkildə ABŞ-ın nəzarətində idi. Ondan öncə qardaş ölkə iki dəfə hərbi qiyam yaşamış və bunun ölkəyə necə ciddi zərbə vurduğunu hər kəs görmüşdü. Orduda hansısa bir ölkənin agenturasının olması artıq ordunun zəif olmasına səbəb olan başlıca amildir. Türkiyədə təmizləmə orduda aparılırsa, deməli, bu, müsbət prosesdir. Təbii ki, çox ağrılı prosesdir. Amma bu olmasa, Türkiyədə növbəti hərbi çevrilişlər gözlənilə bilər. Bunun qarşısını almaq üçün də həbslər davamlı olmalıdır, son nöqtəyə qədər iş aparılmalıdır. Türkiyə ordusu FETÖ-dən, agentura şəbəkəsindən təmizlənməlidir. Bu, normal prosesdir. Qiyamdan sonra türk ordusunun zəifləyəcəyi deyilirdi. Amma Suriyaya baxaq. Türk ordusunun bu ölkəyə müdaxiləsindən sonra Azad Suriya Ordusu rahat nəfəs aldı. DAİŞ, PYD-dən çox strateji ərazilər təmizləndi. Suriyada quru əməliyyatlarına yalnız Türkiyə ordusu risk edib getdi. Amerika hələ indiyə qədər buna risk etməyib, yalnız havadan Suriya müharibəsində iştirak edib. Türkiyə hakimiyyəti öz ordusuna əmindir. Daxildə FETÖ və terrorçu kürdlərə qarşı mübarizə aparılır, eyni zamanda Suriyada hər kəs türk ordusunun gücünə şahidlik edir. Bu həbslər türk ordusunu zəiflətməyəcək, əksinə, daha güclü edəcək".

## "Türkiyə ordusu FETÖ-dən, agentura şəbəkəsindən təmizlənməlidir"



❑ **Cavanşir ABBASLI**

# Əli Kərimlini susduran səbəb...

## AXCP lideri son vaxtlar kölgəyə çəkilib; onu bitirə biləcək bir olay yaşandığı iddia olunur; **Razi Nurullayev:** "Topladıqları xalları xərcləməklə fəaliyyət göstərirlər"

**Sentyabrın 26-da keçirilən referendumdan sonra ölkənin öndə olan siyasi partiyalarının liderləri demək olar ki, siyasətdən qeybə çəkiliblər. Son üç ayda ölkə daxilində siyasi və iqtisadi sahələrdə müxalifətə birbaşa aidiyyəti olan proseslər getsə də, partiya liderləri baş verənlərlə bağlı sanki seyrçi mövqedə dayanıblar.**

Təsadüfi deyil ki, elə liderlər var ki, ümumiyyətlə, Tarif Şurasının qərarı ilə qaz və işığın bahalaşmasına mövqe belə bildirməyib.

Ən maraqlısı isə odur ki, son vaxtlaradək, belə demək mümkünsə, guruldayan Əli Kərimli də kölgəyə çəkilib. Davamlı olaraq facebook səhifəsində radikal açıqlamalarla çıxış edən Ə.Kərimli indi yalnız baş qatmaqla məşğuldur, bəzən günlərlə status paylaşmır.

Bəzi iddialara görə, Əli Kərimlinin ətrafında və ona yaxın olan şəxslərlə bağlı ciddi bir proses həyata keçirilir və həmin kəsin ciddi "çp"-ləri var. Bu səbəbdən Əli Kərimlinin başı özünə qarışıb və o, bu prosesin üzə çıxmaması üçün maksimum çalışır və hətta acizanə şəkildə mövqeyindən çəkilmiş kimi də görünür...

**Əli Kərimlinin susqunluq nümayiş etdirməsinə münasibət bildirən əski silahdaşı, yeni elan edilən AXCP qanadının sədri Nurullayev bildirdi ki, kadr və ideya cəhətdən liderlər tükəniblər:** "Biri atı üzü yoxuşa tərəf sürərsənsə, tez yorular. Azərbaycanda ənənəvi müxalifət daim üzü yoxuşa tərəf gedib və özünü yorub. Eyni zamanda üzü yoxuşa tərəf gedib və bilib ki, nəticəsi olmayacaq. Siyasi proseslər olan zaman aktivlik çoxalır. Ənənəvi müxalifətdən fərqli olaraq, yeni qüvvələr-burada biz də varıq - daha çox xalqla yaxınlaşmağa önəm verirlər. Bunu da həyata keçirirlər. Əminəm ki, getdikcə bu qüvvələrin mövqeyi güclənəcək. Əvvəlki aylarla müqayisədə bizim fəaliyyət günü-gündən güclənir, üzv olmaq istəyənlərin sayı durmadan artır. İnsanlar dediklərimizə, təkliflərimizə reaksiyalar verirlər. Artıq zamanı və səbri zorlamaq olmaz. Onlar dediklərini deyiblər, etdiklərini ediblər. Bundan sonra yeni bir şey desələr belə, xalqın inamı olmayacaq. Onlara siz gedin kimi çağırışlar etmək də mənasızdır. Xalqın fəallaşması, yeni qüvvələrin getdikcə güclənməsi ilə onlar yavaş-yavaş yoldan çəkiləcəklər. Son zamanlar çoxsaylı gənclə görüşmüşəm və əmin olmuşam ki, insanların yeni qüvvələrə maraqları artıb. Ənənəvi müxalifətin perspektivsiz olduğu anlamına gəliblər. Əli Kərimlinin liderlik etdiyi Milli Şura dar çərçivəli, bağlı bir klubdur. Xalqın bütün qüvvələrinin birləşdiyi bir təşkilat deyil. Bu qurumdan nəsə gözləmək, onu gündəmə gətirmək xalqın marağında deyil. Şəxsən bizə də maraqlı deyil. Xalqı onlar düşünsəydilər, şəxsi ambisiyalarını kənara qoyub, bütün qüvvələrin qurumda təmsil olunmalarına şərait yaradardılar. Bu isə yoxdur. O klubda təmsil olunan şəxslər 1988-ci ildən başlayaraq topladıqları xalları xərcləməklə fəaliyyət göstərirlər. Bu xallar da artıq sıfır nöqtəsinə yaxınlaşmaqdadır. O da bitəndən sonra onsuz da özləri də bitəcəklər. Onun üçün yeni birliklərə ehtiyac var. 2017-ci ildə müxalifətin birliyi, vahid namizəd müəyyən etmək yolunda kifayət qədər ciddi addımlar atacağıq. Azərbaycanda yeni qüvvələrin birliyi yaranacaq. Ondan sonra şəffaf fəaliyyət görünəcək. Milli Şura da artıq siz jurnalistlərin, ictimaiyyətin belə diqqətindən düşəcək".

**R.Nurullayev AXCP-nin qeydiyyat müəmmasına da toxundu:** "Hakimiyyətə vəziyyətin bu şəkildə davam etməsi sərf edir. Biz də bu halla müəyyən qədər barışmışıq. Partiyanın qeydiyyatının olmaması bizə ciddi maneələr törətsə də, hədəflərimizə maneçilik törətmir".

❑ **Cavanşir ABBASLI**



Əli Kərimli



# Makkeyn Litvadan Qafqaza gəlir

**Amerikalı hərbçilər gərək daimi qayda Litvada olsunlar. Axar.az xəbər verir ki, bunu Litva prezidenti Daley Qribauskayte ilə görüşü zamanı amerikalı senator Con Makkeyn söyləyib.**

Qeyd edək ki, Makkeyn Litvaya amerikalı senatorlar Lindsi Qrem və Emi Klobuçarla birgə səfər edib. Səfər iki gün davam edəcək. Vilnüsdə senator prezidentlə yanaşı, baş nazir, spiker və xarici işlər naziri ilə də görüş keçirəcək.

Makkeynin rəhbərlik etdiyi nümayəndə heyəti Litvadan sonra Ukrayna, Gürcüstan və Monteneqroya səfər edəcək.

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016

**Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" getdikcə öz fəaliyyətini genişləndirir. Bu layihəyə prezident İlham Əliyev də xüsusi olaraq yanaşır və bir növ hiss edilmədən hökumətin "ASAN"laşdırılması" prosesi aparılır.**

# Hökumətin "ASAN"laşdırma prosesi çərçivəsində planları

## Anar Hüseynov: "Minimal xərclərlə vətəndaşlara xidmət göstərəcəyik"

Ekspertlər bildirirlər ki, Azərbaycanda "ASAN xidmət"in yaradılması və uğurlu fəaliyyəti onu göstərdi ki, məmur-vətəndaş münasibətlərindəki problemləri, süründürməçiliyi, rüşvətxorluğu aradan qaldırmaq üçün artıq təsdiq olunmuş bir mexanizm mövcuddur. Bildirilir ki, bir çox xidmətlərin "ASAN"laşdırılması həm dövlət rüsumlarının birbaşa büdcəyə daxil olmasına yol açdı, həm də vətəndaşları əlavə xərclərdən xilas etdi.

Dekabrın 28-də prezident İlham Əliyevin də iştirakı ilə Bakıda 1 saylı "ASAN kommunal" mərkəzinin də açılışı oldu.

İlk olaraq qeyd edək ki, "ASAN kommunal" mərkəzi Azərbaycan Respublikası Prezidentinin 4 may 2016-cı il tarixli Fərmanında verilmiş tapşırığa müvafiq olaraq yaradılıb.

"ASAN kommunal" mərkəzində 3 qurum - "Azərişıq" ASC, "Azərsu" ASC, "Azəriqaz" İB tərəfindən ümumilikdə 45 növ xidmət göstəriləcək.

Göstəriləcək əsas xidmətlərə məişət abonentlərinin elektrik, su, qaz şəbəkəsinə qoşulması ilə əlaqədar müqavilələrin bağlanması və texniki şərtlərin verilməsi, elektrik, su və qaz sayğaclarının quraşdırılması, dəyişdirilməsi, sayğaclar üçün smart kartların verilməsi və digərləri daxildir.

Bildirilir ki, gələcəkdə istilik təchizatı, rabitə-telefon xidmətləri, poçt, kabel televiziyaları, internet xidmətləri və kommunal sahədə fəaliyyət göstərən digər dövlət və özəl qurumların xidmətləri "ASAN kommunal" mərkəzlərində təşkil edilə bilər.

Həmçinin dekabrın 28-də prezident İlham Əliyev səyyar "ASAN qatar"la tanış olmaq üçün "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasına gəldi. O, xidmətin fəaliyyətə başlamasını bildirən düyməni basdı.

**"ASAN xidmət"in 2016-cı ildə gördüyü işlər və 2017-ci il üçün planları barəsində "Yeni Müsavat"a agentliyin İnformasiya təminatı şöbəsinin müdiri Anar Hüseynov danışıb. O bildirib ki, bu il ərzində bir sıra yeniliklər həyata keçiriblər:**

"2016-cı ildə Qəbələ və Masallı rayonlarında olmaqla iki regional "ASAN xidmət" mərkəzi istifadəyə verildi. Bununla da artıq Qəbələ, həmçinin də Masallı və ətraf rayonlarda qeydiyyatda olan vətəndaşlar müvafiq xidmətlərimizdən yararlanmaq imkanını əldə etdilər. "ASAN xidmət" mərkəzlərinin təsis edilmədiyi regionlarda isə səyyar formada xidmətlərimiz davam etdirilir. Müasir texnologiyalar avadanlıqlarla təchiz edilmiş avtobuslar regionlara səfər edərək, yerlərdə bir növ dövlət xidmətini


Anar Hüseynov

vətəndaşın qapısına gətirərək bundan yararlanmağa şərait yaradıblar. Bununla yanaşı, 4 may 2016-cı il tarixində cənab prezidentin fərmanına əsasən "ASAN kommunal" mərkəzlərin yaradılması tapşırığı verildi. Bu, "ASAN xidmət" təcrübəsinin digər xidmət sahələrinə tətbiq edilməsi və xidmətlərin daha da keyfiyyətli, rahat olmasına şərait yaradacaq. Növbəti illərdə Bakıda daha iki kommunal mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. Bunlardan biri Dəmir Yolu Vağzalının, digəri isə Ukrayna dairəsinin yaxınlığında inşa ediləcək".

**A.Hüseynov deyib ki, bu kommunal mərkəzlərdə təkcə ödənişlər qəbul edilməyəcək:** "Burada arayışların verilməsi, itirilmiş və zədələnmiş smart kartın yenisi ilə əvəz edilməsi, borcun araşdırılması və digər xidmətlər həyata keçiriləcək. Vətəndaşlar hər hansı bir halla bağlı şikayətlərini "108" çağrı mərkəzinə və ya hər hansı bir "ASAN kommunal" mərkəzinə müraciət edərək bildirə bilərlər.1 saylı "ASAN kommunal" mərkəzi yanvarın 15-dən pilot layihə çərçivəsində paytaxtın Nəsimi, Nərimanov və Binəqədi rayonunda qeydiyyatda olan vətəndaşlara xidmət göstərəcək. Rayonlarda mərkəz yaradılmadan öncə, orada səyyar formada xidmət həyata keçirilirdi. 2013-cü ildə biz fəaliyyətə 2 avtobusla başladıq. Daha sonra isə cənab prezidentin tapşırığı ilə bu avtobusların sayı 10-a çatdırıldı. Artıq səyyar xidmətin məntiqi davamı olaraq missiyanı qatarlarla davam etdirəcəyik. Bəllidir ki, ölkədə geniş dəmir yolu şəbəkəsi, mövcud infrastruktur var. Dəmir yolu nəqliyyatı bir çox özünə məxsus üstünlüklərə sahibdir. Belə ki, qatar uzaq məsafələri daha sürətlə qət edir, müntəzəm hərəkətlilik, xərclərin azlığı da bura daxildir. Yeni "ASAN-qatar"la minimal xərclərlə vətəndaşlara xidmət göstərəcəyik. Bizdə hazırda 11 "ASAN xidmət" mərkəzi, regionlarda xidmətini davam edən 10 avtobus var. "ASAN-qatar" da əvvəlcədən müəyyən olunmuş cədvələ uyğun olaraq stansiyalarda vətəndaşlara xidmət göstərəcək. Cənab prezidentin şəxsi təşəbbüsü ilə yaradılan və daim diqqət mərkəzində olan qurumda çalışmaq qürurvericidir. Onun diqqəti bizi işimizə daha həvəslə və peşəkarlıqla yanaşmağa ruhlandırır. Prezidentin "ASAN xidmət"in fəaliyyəti ilə bağlı səsləndirdiyi fikirlər qarşımıza qoyduğumuz işin icrasında məsuliyyətimizi daha da artırır. Vətəndaş məmnunluğunun təmin olunması istiqamətində biz daima işimizi təkmilləşdirməyə, fəaliyyətimizi gücləndirməyə çalışırıq".

❑ **Əli RAİS**

# Ölkədə yayılan virus klassik qripdir, yoxsa...

## Rəsmilər narahatlığa əsas görmür, insanlar isə yeni növ xəstəlikdən şikayətçidilər

**Son günlər paytaxt sakinləri arasında sürətli şəkildə yayılan xəstəliyin klassik qripdən fərqli olduğu görünür. Belə ki, halsızlıq, əzələ ağrıları, boğaz ağrısı və temperaturla müşayiət olunan xəstəlik az qala hər evin qapısını döyüb. Hazırda kiminlə həmsöhbət olursansa, mütləq onun yaxın ətrafında - ya ailəsindən kiminsə, ya da özünün bu xəstəlikdən əziyyət çəkdiyi üzə çıxır. Apteklər isə insan selinə uğrayıb. Hətta mərkəzdən kənarda yerləşən qəsəbə apteklərində belə uzun-uzun növbələr yaranıb. Bir nəfər üçün satılan dərmanların ümumi məbləği bəzən 25-30 AZN-ə qədər çatır. Bu, ilkin mərhələdə tətbiq olunan nolqrip, anzibel kimi dərmanların, eləcə də boğazı dezinfeksiya etmək üçün satılan məhlullara ödənilən məbləğdir.**



Amma bununla bağlı ekspertlərin fərqli fikirləri var. Belə ki, yayılan xəstəliyin qrip virusu olmaması ən çox səsləndirilən tezislərdən biridir. Ekspertlər bildirir ki, bu, yuxarı tənəffüs yollarında yaşayan, parazitlik edən viruslardan biridir. Yuxarı tənəffüs yollarında olan həmin viruslar soyuq havalarda nisbətən fəallaşır. İnsanlar arasında deyildiyi kimi, bu, qrip virusu deyil. Sadəcə olaraq, bu xəstəliyi qripə aid əlamətlərlə keçirdiyimiz üçün "qrip" adlandırırıq. İmmunitet sistemi zəiflədikcə camaat infeksiyanı bir-birinə tez zamanda yoluxdurur.

**Azərbaycanın baş epidemioloqu İbadulla Ağayev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, buna epidemiya demək olmaz. Müsahibimizin sözlərinə görə, bunun epidemiya olduğunu deməkdən öncə ölkə ərazisində ciddi araşdırma aparılmalıdır:** "Səhiyyə Nazirliyinin mütəxəssisləri o vaxt onu rəsmi elan edə bilərlər ki, ölkəni kütləvi şəkildə epidemiya bürüsün. Şükürlər olsun ki, ölkə ərazisində yoluxucu xəstəliyin epidemiyası yoxdur. Azərbaycanda 4242 kənd, 4400-dən artıq yaşayış məntəqəsi var. Kim sayıb onu ki, hər evdə 5-6 nəfər xəstə var? Bu, yanaşma yanlışdır".

**Müsahibimiz dedi ki, xəstəliyin sürətlə yayılmasının bir səbəbi var. Belə ki, hər hansı ailədə bir nəfər xəstələnəndə onu təcrid etmirlər, ailənin digər üzvləri maska ilə gəzmir, xəstənin qab-qaşığı ayrılmır, evə sahə həkimi çağırılmır:** "Bütün bunlar edilmədiyinə görə də xəstəlik sürətlə yayılır. İnsanlar xəstə üçün həkim çağırmaq əvəzinə bibi-xala məsləhəti ilə müalicə olunmağa çalışırlar. Bunun da nəticəsi uğurlu olmur. Əslində insanlar həkim təyinatından sonra müalicə olunmalıdılar. Ancaq bu halda qarşısını almaq olar. Səhiyyə Nazirliyinin rəsmisi kimi deyirəm ki, ölkədə nə qripin, nə də hər hansı başqa yoluxucu xəstəliyin epidemiyası var. Bir nəfər xəstə kimi gəlirsə, hamınız yoluxacaqsız. Bibiniz qızı xəstədirsə, onun sizə qonaq gəlməsinə ehtiyac yoxdur. Beynəlxalq təşkilatlar var. Onlar qəfil ölkəyə gəlib, vəziyyətlə tanış olurlar. Hava limanından düşüb, hansısa kəndə gedir, vəziyyəti yoxlayırlar. Səhiyyə Nazirliyinin bundan xəbəri belə olmur. Hər hansı epidemiya olsaydı, bu, artıq hesabatlarda əks olunardı".

**Baş epidemioloqun sözlərinə görə, insanlar xəstə olduqları müddətdə işə gedirsə, küçəyə çıxırsa, soyuq mühitdə olursa, qrip uzun müddət davam edir:** "Özlərini qorumayan şəxslər hər zaman soyuqdəyməyə meylli olurlar. Amma biz kimin xəstələnib-xəstələnməyəcəyi barədə proqnoz verə bilmərik. Hər evə həkim, tibb işçisi xüsusi nəzarət edə bilməz. Hər bir şəxs sağlamlığının qeydinə qalmalıdır. Virus insandan asılı olmayaraq orqanizmə yoluxur. Yoluxmanın arealına xüsusi nəzarət oluna bilməz. Bütün poliklinikalarda, tibb müəssisələrində xəstələri qəbul etmək üçün şərait var və lazımi zamanda qripli şəxsə yardım etmək mümkündür. Amma həkimə gəlməzdən öncə hər bir şəxs öz sağlamlığının qeydinə qalmalıdır".

**İ.Ağayev həmçinin dedi ki, qripin tarix boyu epidemiyaları olub. Müsahibimizin sözlərinə görə, o vaxt da asqırmaq, öskürmək, hərarətin qalxması, burundan su açılması əlamətləri vardı, indi də var:** "Qripin 10 il bundan qabaq əlamətləri ilə indiki eynidir. Amma epidemiologiya elm kimi formalaşandan sonra qrip xəstəliyi ayrı-ayrı adlarla olur. Amma bunu yeni xəstəlik kimi təqdim etmək düzgün deyil. Dezinformasiya yayanlar var. Hər kəs öz işi ilə məşğul olmalıdır. Xəstəliyi ağırlaşdıran xəstənin özüdür. Biri deyir, başına soyuq su qoy, o biri deyir, isti suya ayağını qoy. Apendisit deyil ki, dərhal kəsilsin və bitsin. Qripin müalicəsi bir neçə gün davam edir".

**SN rəsmisinin sözlərinə görə, nazirlik tərəfindən ölkədə yoluxucu xəstəliklərə qarşı bütün zamanlar üçün qabaqlayıcı tədbirlər görülür:** "Əgər hər hansı bir xəstəliyin kütləvi yayılması baş verərsə, onun qarşısını almaq mümkündür. Bu gün ölkə ərazisində kəskin respirator xəstəliklər, o cümlədən qripə yoluxma ilə bağlı epidemioloji baxımdan narahatedici vəziyyət yoxdur. Yayda da, qışda da qripə yoluxmaq olar. Sağlamlığının qeydinə qalmayan insanlar ilin bütün fəsillərində xəstələnə bilirlər. Ümumilikdə, bu gün qriplə bağlı heç bir narahatçılıq yoxdur. Qripin çox və ya az davam etməsi hər bir insanın özündən asılıdır".

❑ **Sevinc TELMANQIZI**

# Dünyaca məşhurların ən çox öldüyü il - 2016

**"The İndependent" yazır ki, 2016-cı ildə vəfat etmiş ulduz və məşhurların siyahısı çox uzundur. «Lap bütün ili bir tərəfə qoyaq» yazır qəzet, «təkcə elə ötən həftə George Michael, Carrie Fisher, onun anası Debbie Reynolds, Richard Adams, Rick Parfitt, Rabbi Lionel Blue, Zsa Zsa Gabor dünyalarını dəyişiblər».**

İş o yerə çatıb ki, New Yorker məcmuəsinin karikaturasında bir mələk Əzrayıla məsləhət verir: "Bəlkə bu məşhurlara bir az fasilə verəsən..."

**Komediya aktyoru və yazıçı David Baddiel isə belə bir twit yazıb:** "Az qala inanıram ki, kütləvi şəkildə sevilən insanları hansısa serial qatil öldürür".

Hətta ilin əvvəllərində də məşhurların ölüm reytinqi yüksək idi. Aprel ayında biz artıq David Bowie, Pierre Boulez, Cecil Parkinson, Alan Rickman, Umberto Eco, Anita Brookner, Johan Cruyff, Ronnie Corbett, lord Terry Wogan, Harper Lee, lord George Martin, Keith Emerson, Nancy Reagan, Zaha Hədid və Paul Daniels-ə əlvida demişdik.

"The İndpendent" yazır ki, hətta BBC bu 2016-nı özünün əvvəlcədən yazılmış nekroloqlarından istifadə sayına görə rekord ili hesab edir.

Xəbər verilir ki, BBC yanvar ayında əvvəlcədən hazırlanmış nekroloqlarından əvvəlki illə müqayisədə iki dəfə artıq istifadə edib. Bu rəqəm 2012-ci ildə olduğundan 5 dəfə artıqdır.

BBC-nin nekroloqlar üzrə redaktoru Nick Serpell deyib ki, korporasiya əvvəlcədən yazılmış nekroloqlarının 30 faizini işlədib qurtarıb.

«The İndependent» yazır ki, 2016-cı ilin ilk üç ayında da elə qeyri-məşhurların da ölümü yüksək olub. 2016-cı ilin ilk üç ayında Britaniyada 156 min 41 nəfər vəfat edib. 2015-ci il üçün bu rəqəm 151 min 801 idi. Lakin bu fərq statistik baxımdan elə də qeyri-adi deyil. Onda belə nəticə çıxır ki, 2016-cı ildə məşhurlar, hər halda, daha çox vəfat ediblər.

"The İndependent" yazır ki, hətta buna da baxmayaraq bu il məşhur ölümlərinin çox olmasını statistik meyl yox, statistik "qısa qapanma" adlandırmaq olar.

"Bunun əsas səbəbi isə 1960-cı illərdir" - deyilir məqalədə.







18-ci əsrin sonlarında Britaniyada çıxan «Gentleman» jurnalı özünün başsağlıqları dərc olunan səhifəsini tam-miqyaslı nekroloq səhifəsinə çevirəndə məcmuə yazırdı ki, bu səhifədə yalnız "görkəmli adamların" başsağlığı yazıları dərc olunacaq.

Lakin 20-ci əsrin birinci yarısından Hollywood və peşəkar idman ulduzlarının və onlarla birlikdə "məşhurlar mədəniyyətinin" yüksəlişi başlanıb.

20-ci əsrin əvvəllərində bir Frank Sinatra vardı və daha sonra Elvis olmuşdu, vəssəlam. Lakin 1960-cı illərdən 4 liverpullu uşağın - «Beatles» qrupunun məşhurlaşması ilə ulduz yağışı başlanıb.

Beatles qrupunun ardınca «Rolling Stones», «Who» və «Kinks», habelə Məhəmməd Əli, Michael Caine, Terence Stamp, Julie Christie, George Best, Davids Bailey, Frost və Hockney doğulublar. Ulduzların kütləviliyi beləcə müasir pop mədəniyyətinin əsasını qoyub.

"1960-cı illərdə məşhurlaşanlar indi ömürlərinin payız və qış çağındadırlar və onların ölümləri də qaçılmaz şəkildə artır" - yazıb "The Independent".

"The Independent" yazır ki, bir qayda olaraq musiqi adamları daha erkən ölürlər.

2014-cü ildə Avstraliyada 13 min rok və pop ulduzu üzərində aparılmış elmi araşdırmadan məlum olub ki, onlar orta hesabla əhalinin qalan hissəsindən 25 il tez vəfat edirlər.

"The Independent" yazır ki, burada əlbəttə musiqi ulduzlarının o qədər də sağlam olmayan həyat tərzi də öz rolunu oynayır.

Bir də facebook-u unutmaq olmaz. 2016-cı ildə bu sosial şəbəkəyə daha 250 milyon insan qoşulub.

Bu isə o deməkdir ki, az-çox məşhur olan insanların ölümləri qeyd olunur və daha böyük əhəmiyyət kəsb edir.

"The Independent" yazır ki, bu mənada elə bir dəyişiklik baş verməyib. İndi dünyada əvvəllər olduğundan daha çox məşhur insan var və onların hamısı təəssüf ki, Əzrayılın siyahısındadır (BBC).


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Universitet müəlliməsinə dələduzluğa görə 7 il cəza verildi

**Bakıda universitetə adam düzəldən müəlliməyə hökm oxunub. O, 7 il müddətinə azadlıqdan məhrum edilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Mətanət Şahalıyevanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Hakim Azər Orucovun sədrliyi ilə keçirilən prosesdə müəlliməyə hökm oxunub.

Məhkəmənin hökmü ilə M.Şahalıyeva 7 il müddətinə azadlıqdan məhrum edilib.

İttiham aktına görə, Müəllimlər İnstitutunun müəllimi olan M.Şahalıyeva Bakı sakini Qəhrəman Əliyevdən övladını universitetə qəbul etdirəcəyi adı ilə pul alıb.

20 min manat alsa da vədinə əməl etməyib. M.Şahalıyeva Ceyran Bayramovaya qarşı da eyni əməli törədib və ondan da 12 min manat pul alıb.

Ancaq həbs edilən müəllimə özünü təqsirli bilmədiyini, pulları borca aldığını deyir.

❑ **İ.MURADOV**



## Məhkəmə narkotik və silah ittihamı ilə tutulan şəxsin barəsində bəraət hökmü çıxarıb

**Nəsimi Rayon Məhkəməsində narkotik vasitə və odlu silah saxlamaqda təqsirləndirilən Cəfər Ağayevin məhkəməsi keçirilib. Vəkil Adəm Məmmədovun APA-ya verdiyi məlumata görə, hakim Babək Pənahovun sədrlik etdiyi iclasda hökm elan edilib.**

Hökmə əsasən, C. Ağayevin barəsində bəraət hökmü çıxarılıb. Hökmdə onun cinayət əməli sübuta yetirilmədiyi qeyd edilib. Bundan əlavə, istintaqı düzgün aparmayan müstəntiq və təhqiqatçı barədə tədbir görülməsi üçün xüsusi qərar qəbul olunub.

Qeyd edək ki, C. Ağayev bir müddət əvvəl həbs edilib. O, Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama) və 228-ci (qanunsuz olaraq odlu silah əldə etmə) maddəsinə əsasən ittiham edilib.

## Körpüdə maşın aşdı, prospekt bağlandı

**Ziya Bünyadov prospektinin 20 Yanvar dairəsi və əks istiqamətdə 3-4 km uzunluğunda sıxlıq yaranıb. Media24.az xəbər verir ki, prospektin "Koroğlu" metro stansiyası istiqamətində, Karl Marks kimi tanınan ərazidə körpünün üzərində qəza baş verib. Nəticədə o istiqamətdə böyük tıxac yaranıb.**

Qəzanın necə baş verdiyi məlum olmasa da minik avtomobili körpünün üzərində aşıb. Ehtimal olunur ki, başqa bir avtomobillə toqquşduqdan sonra sürücü idarəetməni itirərək maşını aşırıb. Xəsarət alanların olub-olmaması barədə məlumat yoxdur.

Əks istiqamətdə də tıxac var. Əks istiqamətdə hərəkətdə olan sürücülərin qəza baş verdiyi əraziyə çatdıqda süreti azaldaraq qəzaya tamaşa etmələri böyük tıxaca səbəb olub.

YENİ MÜSAVAT
N 292 (6613) 30 dekabr 2016




**Cümə söhbətləri**

# İnsanın mənəvi təkamülünü şərtləndirən 3 hal

**Bismilləhir-Rahmənir-Rahim!**
**İnsan həyatında ən önəmli mövzulardan biri, onu əhatə edən nemətləri tanımasıdır. İnsanlar iki qrupa bölünür. Hər birimiz bu iki qrupdan birinə aid ola bilərik. Əhatə olunduğumuz nemətləri tanıyan və bu nemətləri tanımayan və ya bu nemətlərdən qəflət edən insanlar.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Hər tərəfdən nemətlərlə əhatə olunmuşuq

İslam əxlaq nəzəriyyəsi nemətləri tanımanı təkamül üçün zəruri şərt bilir. İnsanın özünü islahı, özünü düzəltməsi, qaydaya salması üçün nemətləri tanıması və bu nemətləri Rəbbin insana bəxş etməsinin fərqində olması çox mühümdür. Bizlər dünyaya gələndən, hətta ana bətnində olduğumuz zamandan nemətlərlə əhatə olunuruq. Bir kiçik zərrədən, birhüceyrəli varlıqdan təkamül edə-edə bu dünyaya qədəm qoyuruq. Ana bətnində fövqəladə nemətlər əhatəsində oluruq. Bizim hələ heç bir iradəmiz işə düşmədən, Allah Təala bizləri bu qədər böyük nemətlərlə əhatə edir.

Dünyaya gəlirik və dünyaya gələn kimi yaşamağımız üçün lazım olan bütün nemətlər ixtiyarımızda olur. Hava neməti, aclıq hissi neməti, aclığımızı ödəyə biləcək qida neməti... Sonra böyüyürük, bir gün, bir həftə, bir ay, bir neçə ay... Sonra oturmağı öyrənirik, addım atmağı öyrənirik, yeriməyi öyrənirik, danışmağı öyrənirik, fikrimizi ifadə edə bilirik, başa düşə bilirik. Bunların hamısı böyük nemətlərdir. Valideyin neməti, övlad neməti, ev neməti, əmin-amanlıq neməti, növbənöv nemətlər var və biz onların əhatəsindəyik.

## Zahiri və batini nemətlər

Əxlaq mütəxəssisləri bizləri əhatə edən nemətləri iki qrupa bölürlər: zahiri və batini nemətlər. Zahiri nemətlər o nemətlərdir ki, bizim fiziki varlığımızla, bədənimizlə bağlıdır. Batini nemətlər o nemətlərdir ki, onlar bizim ruhumuzla, mənəviyyatımızla bağlıdır. Bu mövzuda müxtəlif buyuruşlara, hədislərə diqqət edəndə görürük ki, yerinə görə bizlərə ən üstün nemətlər təqdim olunur. Bunların içərisində Həzrət Əlinin (ə) zahiri nemətlərlə bağlı buyuruşuna diqqət edək: "Ən üstün nemət - sağlamlıqdır".

Belə başa düşülür ki, zahiri nemətlərin içərisində ən üstün nemət - sağlamlıqdır. Əgər sağlamlıq olmasa, fiziki nemətlərin heç birindən bəhrə apara bilməyəcəyik. Bəlkə də yemək yeyəcəyik, amma dadını hiss etməyəcəyik, hərəkət edəcəyik, halımız olmayacaq, fiziki anlamda ixtiyarımızda nə varsa, onlardan istifadə etmək istəyəcəyik, amma alınmayacaq. Deməli, sağlamlıq neməti fövqəl dərəcədə böyük bir nemətdir. Yeniyetmələr, cavanlar ona daha çox malik olarlar, elə bilərlər ki, elə belə də olmalıdır, bu nemətin fərqinə varmazlar. Adam yaşlandıqca yavaş-yavaş bu sağlamlıq nemətinin nə qədər əhəmiyyətli olmasının fərqinə varar və anlayar ki, bunlar əldən çıxa da bilər. Ona görə də, sağlamlıq fövqəl dərəcədə önəmli nemətdir.

## Ən böyük batini nemət nədir?

Batini nemətlərin içərisində əxlaq mütəxəssisləri xüsusən ağıla vurğu edir. Buyuruşlarda da var ki, ağıl - ən fəzilətli nemətdir. Yəni biz bütün mənəvi nemətləri, ruhumuzla bağlı nemətləri əgər dəyərləndirsək, görəcəyik ki, əgər ağıl neməti bizdə olsa - mükəlləf olarıq, ağıl olmasa - təbii ki, mükəlləf olmarıq. Ağlımız olmasa, bizlər digər mənəvi nemətlərdən bəhrə apara bilmərik, əxlaqi nemətlərdən faydalana bilmərik, iradəvi nemətlərdən doğru-dürüst istifadə edə bilmərik.

Ağıl olanda mükəlləfiyyətlərimiz, vəzifələrimiz meydana gəlir. Namaz o zaman vacib olur ki, insanın ağlı yerində olsun. Digər vacib əməllər də o cürdür. Ağıl olmasa, bizlər üçün heç bir mənəvi mövzu, fəzilət mövcud olmaz.

Deməli, ağıl bizlərin malik ola biləcəyimiz batini nemətlər içərisində ən üstün olandır. Bu, digər mənəvi nemətlərin sanki bir müqəddiməsidir.

## İmam Sadiq (ə) ən böyük neməti bizə belə tanıdır

İnsan bütün nemətlərin hamısını toparlasa, bunların içərisində ən ali və ən üstününü, Allah bəndəsinə verilə biləcək ən fəzilətli olanını ayırd etmək istəsə, hansını seçəcək? İmam Sadiq (ə) bizə həmin neməti tanıdır. İmam (ə) buyurur: **"Allah Təala heç bir bəndəsinə qəlbində Allahla yanaşı heç bir şeyin olmamasından daha üstün nemət inayət etməmişdir".**

Ən böyük nemət budur ki, insanın qəlbində Allahdan başqa heç bir şey olmasın. Ən böyük nemət məhz budur. Həzrət İmam Hüseyn (ə) dualarının birində buyurur: **"Allahım, Sən o Allahsan ki, dostlarının qəlbindən qeyrilərini kənarlaşdırmısan, çıxarmısan, orayadək ki, Səndən başqasını sevməsinlər. Və o kəsin ki, Sən varısan, nəyi yoxdur ki?"**

Həzrət İmam Hüseyn (ə) Allah Təalaya müraciətində bəyan edir ki, O, öz dostlarının qəlbindən Özündən qeyrisini kənarlaşdırıb. Bununla da onlar yalnız Allahı sevirlər. Bu buyuruşdan başa düşülür ki, insan əgər mənəvi təkamül keçərək Allahın dostu olmaq şərəfinə çatsa, Allah Təala ona qəlbindən Öz sevgisindən başqa digər hər şeyi uzaqlaşdırmaq nemətini o bəndəyə əta edər. Ən böyük nemət əslində budur. Bundan daha böyük nemət yoxdur ki, insanın qəlbində Allahdan başqa heç nə və heç kəs olmasın.

## Nemətlərə və onları əta edənə mərifətdən sonra insanın üç halı

İslam əxlaqında nemətlərlə bağlı əxlaqi təkamül üçün üç xüsusi vurğu var. Əgər insan nemətləri və nemətləri əta edən Rəbbi tanısa, onun təkamülü, inkişafı üçün lazım olan üç mühüm mənəvi halı meydana çıxar. Bunlardan biri indiyə qədər olan nemətlərlə bağlıdır, ikisi gələcəkdəki nemətlərlə bağlıdır. Əgər insan dünyaya gələndən bu ana qədər malik olduğu saysız-hesabsız bütün nemətləri ona Rəbbinin verdiyini bilsə, fərqinə varsa, mərifəti olsa, onun daxilində bir mənəvi hal meydana gələr ki, onun adı şükürdür.

İnsanın daxilində mövcud olan zəruri bir qayda var. İnsan kimdənsə nəyisə alsa, ona kimsə nəsə etsə, həmin insanın o kəsə qarşı bir təşəkkür hissi olar. Adi bir yolda iki maşın kəsişir, bir maşın digərinə yol verir. Keçən maşının sürücüsündə, ona yol verən maşının sürücüsünə qarşı daxilində bir minnətdarlıq hissi əmələ gəlir və ona bir formada öz minnətdarlığını çatdırmaq istəyir. Təşəkkür edilən şəxs də qarşı tərəfin təşəkküründən təəccüblənmir. Bu, insanların daxilində qoyulmuş fitri bir qaydadır.

Deməli, əgər insan bu ana qədər ona verilmiş bu qədər nemətlərin Allah tərəfindən əta olunduğunu mərifətlə bilsə, içində Xaliqə qarşı bir minnətdarlıq hissi, şükür halı baş qaldırar. Bu, namazında, davranışlarında, əməllərində özünü göstərər. Təbii ki, bu tanıması, bilgisi, mərifəti diri halda olmalıdır. Biz necə bir dəqiqə internetsiz qala bilmirik, telefonumuz olmayanda özümüzü narahat hiss edirik, o cür də bizim Allahın nemət verən olmasına bilgimiz, mərifətimiz diri, aktiv olsa, bu halda bizim içimizdə minnətdarlıq, şükür etmək halı da diri olar. O halda əməllərimiz, rəftarlarımız, davranışlarımız fövqəladə dəyişər.

Bir nəfər bir gün ayıla ki, universitetdə bütün təhsil haqqını bir nəfər ödəyib. Və o bilməyib, onun üçün ev də kirayələyiblər, yaşayışı üçün lazım olan hər şeyi hazır ediblər. Bir gün bunu başa düşsə və bilsə ki, bir kəs bunların hamısını onun üçün edib, o adama necə təşəkkür etmək istəyər?

İndi bunları edən, bütün bunları olanlardan edib, özü onları yaratmayıb. Amma Allah Təala o insanın özünü və onun təminatı üçün bütün olanların hamısını var edib və etməkdədir.

İnsanın bu mərifət və tanması diri olsa, bu nemətləri verənə şükür halının olması üçün fürsət axtarar. İbadətində, əməllərində bu hiss təzahür tapar, nemətlər ixtiyarında olanda o, başqa cür halda olar.

## Gələcək nemətlərlə bağlı iki hal: xof və rəca

İnsanın iki mühüm halı da gələcək nemətlərlə bağlıdır. Bunlardan biri xof, digəri rəca halıdır. Xof - o halətdir ki, insan biləndə ki, Allah Təala onun davranışları, büdrəmələri, yanlışları, xətalarının nəticəsində bir gün ona verilmiş nemətlərdən məhrum edə bilər, xüsusi bir qorxu halı keçirir. "Kumeyl"duasında oxuyuruq: **"Allahım, bağışla mənim o günahlarımı ki, mənim üçün ayrılan ruziləri dəyişdirir. Allahım, bağışla bizim o günahlarımızı ki, dualarımızı həbs edir".** Allah Təala bizim üçün nemətlər, ruzilər ayırır, amma biz bəzi əməllər edirik ki, həmin əməllər o ruzini dəyişdirir, məhrum oluruq. Allah Təala bizlərin dualarını eşitmək istəyir, müstəcab etmək istəyir, amma bizim bəzi əməllərimiz olur ki, o əməllər dualarımızın həbs olmasına səbəb olur. Deməli, bizlərin bəzi əməlləri, davranışları, xətaları olur ki, onlar bizim üçün ayrılan nemətləri yox edə, aradan apara bilər. Aqibətdə də həmin nemətlərdən əbədi məhrum qala bilərik. İnsan bunu bilsə ki, Allah Təala bizim əməllərimizin nəticəsində ayırdığı nemətlərdən məhrum etməyə qadirdir, xofumuz, qorxumuz meydana gələr. Ən böyük qorxumuz, xofumuz isə ondan olar ki, verilmiş və veriləcək nemətlərdən əbədi məhrum ola bilərik, bu dünyadan sonra əbədi cəhənnəmi qazanmış ola bilərik.

Bu bilgi, mərifət, tanıma insanda dərin bir xof hissi yaradar. İnsan artıq əvvəlki kimi rahat deyil, diqqətlə, ehtiyatla yaşamağa başlayar. Ehtiyat edər ki, elə bir iş tutar ki, bu qədər nemətlərdən məhrum olar. Buna xof haləti deyilir.

İnsanda gələcək nemətlərlə bağlı meydana gələn üçüncü mənəvi halət isə rəca halıdır. İnsan bilir ki, bu nemətləri verən Allah var, bilir də ki, davamı da yalnız O verə bilər. Bilir ki, axirətdə əbədi nemətlər verməyə qadirdir. Bu bilginin, tanımanın, mərifətin diri olması insanda fəal rəca, ümid halı yaradar. Əməllərə təsir qoyan bir hal meydana gətirər. İnsan elə bir əməllərə sahib olmaq istəyər ki, bu gün malik olduğu nemətlərə yenə də malik olsun, hətta həmin nemətlər artmış olsun.

## Bu üç hal birlikdə olmalıdır

Deməli, bizim mənəvi təkamülümüz üçün üç mühüm halət var: şükür, xof və rəca haləti. Birincisi budur ki, bu ana qədər nə varsa, onların Allah tərəfindən verildiyini bilirik, bu bilgimiz diri olur və daxilimizdən şükür halı meydana gəlir və bu, əməllərimizə təsir edir.

İkincisi, bilirik ki, Allah Təala verdiyi bütün nemətlərdən bizi məhrum edə bilər və əbədi məhrum ola bilərik, buna görə də xofumuz meydana gələr, əməllərimizə diqqətli olarıq.

Üçüncüsü, ümidimiz var ki, bizlər əgər yaxşı əməl sahibi olsaq, Allah Təala malik olduğumuzu davamlı şəkildə əta edər və artırar, yaxşı əməllər etməyə çalışarıq ki, bu nemətlərə əbədi olaraq yiyələnək.

## Mömin odur ki, bu üç halı bir yerdə olsun

Əgər bəhsi bir cümlədə xülasələndirsək, deyə bilərik ki, bizlər gərək fəal şəkildə əlimizdə olan nemətlərə görə şükür edək, onların hər an əməllərimizin nəticəsində əlimizdən çıxa biləcəyi xofu ilə yaşayaq və daha gözəl əməllər etməklə, onlara əbədi malik ola biləcəyimizi dərk edək. Əgər bu halda ola bilsək, mənəvi təkamülümüz başlanar və bununla ən ali zirvələrə yiyələnə bilərik.

**Allahım, bizlərə bəxş etdiyin nemətlərin şükrünü lazımi şəkildə həyata keçirməyi nəsib et!**

**Allahım, bizləri nemətləri bizdən uzaqlaşdıran əməlləri etməyə qoyma!**

**Allahım, bizləri əbədi nemətlərə yaxınlaşdıran əməllərə yaxın et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 292 (6613) 30 dekabr 2016


# Yağış ingilisləri bayramda salatsız qoydu

İspaniyadakı güclü yağış və daşqınlar Böyük Britaniyada salat qıtlığına səbəb olub. Bu barədə lenta.ru saytı "Treehugger"ə istinadən yazıb. Qışda Böyük Britaniya ərazisində satılan təzə tərəvəzlərin 80 faizi İspaniyadan gətirilir. Belə ki, xiyar, brokkoli, gül kələmi, göyərti kimi tərəvəzlər olmadansa salat hazırlamaq mümkün deyil. Britaniyanın supermarketlərində hələ bir ay əvvəldən əhaliyə xəbərdarlıq edilmişdi ki, bazarlarda tərəvəz qıtlığı olacaq. Bir çox kampaniyalar problemin həlli üçün Böyük Britaniyadan tərəvəz gətirməyə çalışacaqlar. Amma bu, Milad bayramında ingilislərin bayram süfrəsində salat olmayacağı anlamına gəlir. Çünki indi Böyük Britaniya qadınları üçün salat hazırlamaq qeyri-mümkündür.





## Pis xatirələrdən qurtulma günü keçirildi

Pis xatirələrdən qurtulmaq mümkün olacaq. San Diego School of Medicinedə çalışan elm adamları bu işi laboratoriya şəraitindəki siçanlarla sınaqdan keçirdikdən sonra nəticə əldə ediblər. Elm adamları əvvəlcə siçanın işıqdan qorxması üçün şərait yaradaraq bir təcrübə aparıblar. İşığa doğru gedəndə ayağından elektrik verilən siçan işıqdan qorxmağa başlayıb. Daha sonra neyronlar arasındakı bağlantını qopararaq siçanın bu qorxusuna tamamən qalib gəlinməsinə nail olunub. İşin maraqlı tərəfi odur ki, siçanın neyronlarının arasındakı bağlılıq gücləndiriləndə siçan təkrar işıqdan qorxmağa başlayıb, yəni yaddaşında yox olan xatirələr geri gəlib. Bu sınaqla Jim Carreynin məşhur filmi ağla gəlsə də, araşdırmaçılar bunun "Alzheimer" xəstələri üçün istifadə oluna biləcəyini düşünür. Bugünlərdə isə dünyada pis xatirələrdən qurtulma günü keçirilib. İnsanlar il ərzində ən pis xatirələrini vərəqə yazıb, simvolik olaraq onlardan qurtulurlar.

# Kirpili kafedə bir saat oturmaq 12 dollardır

Yaponiyanın paytaxtı Tokio şəhərində açılan kafe öz qəribəliyi ilə diqqət çəkir. Belə ki, bura gələn müştərilər kafedəki kirpilərlə oynaya bilirlər. Bu barədə lenta.ru saytı "The Guardian"a istinadən xəbər verib. Kafedə bir saat oturmaq üçün həftə içi 9, həftə sonları isə 12 dollar ödəmək lazımdır. İçəridə 20 növə yaxın kirpi saxlanır. Heyvanlar şüşə qutularda saxlanır və onların hər birini ələ götürmək mümkündür. Kafenin əməkdaşı Mizuki Murata deyir ki, daha öncə dovşanlı kafedə çalışsa da, kirpilərlə vaxt keçirmək onun ən böyük arzusu olub. "Biz bu layihə ilə insanlara sübut etmək istədik ki, iynələrinə baxmayaraq kirpilər çox şirin heyvanlardır. Ümid edirəm ki, biz qonaqlarımızı onlara toxunmaq qorxusundan azad edə biləcəyik".

2015-ci ilin noyabrında isə Britaniyanın Bristol şəhərində pişiklər üçün pub açılmışdı. Kafenin 44 yaşlı sakini Lyuk Deniels demişdi ki, elə 15-ə yaxın pişik bu məkanın divarları arxasında doğulub.





## 64 yaşlı qadın rekord təzələdi, dünyanın ən yaşlı anası oldu

Çinin Çançun şəhər sakini olan qadın 64 yaşında dünyaya uşaq gətirib. Bununla da o, dünyadakı ən yaşlı ana rekordunu təzələyib. Adı açıqlanmayan qadının körpəsi son dərəcədə sağlamdır. Onun hamilə qalması isə süni mayalanma yolu ilə mümkün olub. Qadının ovulyasiya dönəmi 10 il öncə bitib. Çinli qadının dünyaya gətirdiyi oğlan körpənin çəkisi 3.7 kilo olub. Körpəsini qeysəriyyə əməliyyatı ilə dünyaya gətirən qadının həkimləri isə bildirib ki, onun yaşında və sağlamlığında olan bir qadının uşaq dünyaya gətirməsi ciddi risk olub. Bununla belə hamiləliyin uğurlu gedişi və dünyaya gələn uşağın sağlamlıq durumu sevindirici olub. Bundan öncə, dekabrda Anastasiya Ontou adlı qadın Yunanıstanda öz qızının uşağını daşıyıcı ana kimi bətnində daşıyaraq rekorda imza atmışdı. 67 yaşlı qadın dünyanın ən yaşlı surroqat anası kimi tarixə düşmüşdü.




**QOÇ** - Bacardığınız qədər bütün diqqətinizi dincəlməyə yönəldin. Onsuz da fəaliyyətlə bağlı bütün cəhdləriniz boşa çıxa bilər. Amma uzaq səfərə çıxmağa ehtiyac yoxdur.

**BUĞA** - Bu gün işgüzar sövdələşmələrdə iştirak etmək olduqca əhəmiyyətlidir. Bu baxımdan tövsiyələrimizdən maksimum istifadə etməyə çalışın. Axşama doğru qonaq getmək də əlverişlidir.

**ƏKİZLƏR** - İlahi qanunlara əməl etmisinizsə, ulduzlar sizə yardımçı olacaq. Nahar ərəfəsində və sonrakı saatlarda bir neçə sürprizlə rastlaşma ehtimalınız böyükdür. Buna hazır olun.

**XƏRÇƏNG** - Hansısa məclisə dəvət alacağınız gözlənilir. Bu, daxili təlatümlərinizin sakitləşməsinə səbəb ola bilər. Hər halda, ovqatınız xeyli yüksələcək. Sütunu möhkəm olan planlarınızı bir daha götür-qoy edin.

**ŞİR** - Bəxtinizdə çox uğurlu bir gün durur. Əzmkarlığınızı artırmaqla bu proqnozu reallığa yaxınlaşdırın. Şəxsi işlərinizdə böyük dönüş start götürə bilər. Perspektivli təkliflər də mümkündür.

**QIZ** - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda xoş nüanslar nəzərə çarpacaq. Hətta sevindirici xəbər və ya təklif də ala bilərsiniz. Sonrakı müddətdə isə neytrallığınızı təmin etməlisiniz.

**TƏRƏZİ** - Yaxşı olar ki, bu təqvimin ilk yarısını oturaq şəraitdə keçirəsiniz. Hər hansı fiziki iş və səfər sizə zərər yetirə bilər. Sonrakı müddətdə isə özünüzə istirahət guşəsi arayın.

**ƏQRƏB** - Maraqlı hadisələr yolunuzu gözləyir. Ətrafınızda baş verən hər bir proses daha çox xeyirli nəticə verəcək. Əgər təşəbbüskarlıq öz əlinizdə olmasa, bütün təkliflərdən imtina edin.

**OXATAN** - Yeni əlaqələr yaratmaq istəyirsinizsə, aktivliyinizi artırın. Çünki bu gün arxasınca getdiyiniz işlərin əksəriyyəti reallaşmalıdır. Heç nəyə, ələlxüsus da insanlara ümidsiz yanaşmayın.

**OĞLAQ** - Müəyyən təsirlərə məruz qalsanız da, təmkininizi pozmayın. Əgər rəqibinizi yerində oturtmağa əmin deyilsinizsə, risk etməyə dəyməz. Yaxşı olar ki, hər şeyi zamanın ixtiyarına buraxasınız.

**SUTÖKƏN** - Nahara qədər əksər istiqamətlərdə düşərli bir gün yaşayacaqsınız. Sonrakı müddətdə isə bir qədər neytral mövqe nümayiş etdirməlisiniz. Daxili şübhələrinizə son qoyun.

**BALIQLAR** - İşgüzar sövdələşmələrdə iştirak üçün ideal təqvimdir. Nüfuzlu insanlarla təmasda olmağınız sizi şöhrətə yaxınlaşdıra bilər. Diplomatik bacarığınızı maksimal səviyyəyə çatdırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Pişik sahibindən bezdi, Londondan Şotlandiyaya qaçdı



Londonda öz sahiblərindən qaçan pişik Şotlandiyada tapılıb. Bu da pişiyin öz evindən 725 kilometr uzaqlaşması deməkdir. Bu barədə lenta.ru saytı yazıb. 10 yaşlı Pablo adlı pişik itkin düşəndən bir il sonra Şotlandiyanın o qədər də böyük olmayan Rosayt şəhərində tapılıb. Pablo bankın avtomatik qapılarından içəri girib və kresloda yuxuya gedib. Bank işçiləri onu veterinara təhvil verəndə üzərində sahibinin kimliyi olan mikroçip tapıblar. Təxmin edilir ki, pişik Şotlandiyaya yük maşınının üstünə hoppanaraq çatıb. Bu vaxta qədər dəfələrlə təcrübədə pişiklərin uzun məsafə qət etmələri görünüb. Amma bu zaman pişiklər daha çox evə qayıtmaq üçün belə "səyahətlər" ediblər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750